Azərbaycan Respublikası
Ədliyyə Nazirliyi

# Yerli özünüidarəetmədə Şəffaflıq və Antikorrupsiya

# METODİK VƏSAİT



Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyi

# Yerli özünüidarəetmədə Şəffaflıq və Antikorrupsiya

Bu metodik vəsait “Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanununun 49-1-ci maddəsinə əsasən bələdiyyələrin fəaliyyətinin təşkilinə kömək və onlara yerli özünüidarəetmə fəaliyyətinin qanunauyğun həyata keçirilməsi sahəsində metodoloji yardım göstərilməsi üzrə tədbirlər çərçivəsində hazırlanmışdır.

BAKI - 2025

*Hazırladı:* **Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş baş idarəsi**

*Rəyçilər:* **Azərbaycan Respublikasının Baş Prokurorluğu**

**Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası**

# MÜNDƏRİCAT

**Ön söz** ........................................................................ **4**

**I FƏSİL. Korrupsiyanın mahiyyəti və yerli özünüidarəetmədə təzahür formaları** ................................ **7**
1.1.Korrupsiya anlayışı və korrupsiya cinayətləri ilə mübarizənin hüquqi əsasları ............................................... **7**
1.2.Yerli özünüidarəetmədə korrupsiya riskləri .................... **17**

**II FƏSİL. Yerli özünüidarəetmə orqanlarında korrupsiyaya qarşı hüquqi və institusional mexanizmlər** ................................................................ **23**
2.1. Azərbaycan Respublikasının korrupsiyaya qarşı mübarizə üzrə Milli Fəaliyyət Planının əhəmiyyəti ..... **23**
2.2. Ədliyyə Nazirliyinin bələdiyyələrlə iş sahəsində fəaliyyəti .................................................................... **31**

**III FƏSİL. Korrupsiyaya qarşı mübarizədə praktiki yanaşmalar və metodlar** ................................................ **41**
3.1. Şəffaflığın təmin olunması üsulları ............................... **41**
3.2. Bələdiyyələrdə etik davranış qaydalarının tətbiqi......... **54**
3.3. Vətəndaş iştirakçılığının artırılması yolları ................... **58**

**Nəticə və təkliflər**........................................................ **63**
**İstifadə olunan ədəbiyyat siyahısı** ................................... **65**

# Ön söz

Azərbaycan Respublikasında korrupsiyaya qarşı mübarizə ölkənin inkişaf strategiyasında mühüm yer tutur və bu sahədə həyata keçirilən islahatların uğuru ilk növbədə güclü siyasi iradə ilə bağlıdır. Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi strateji kursun dövlət başçısı cənab İlham Əliyev tərəfindən qətiyyətlə müasir dövrün tələblərinə uyğun davam etdirilməsi nəticəsində ölkə həyatının bütün sahələrində mühüm nailiyyətlər əldə edilmişdir. Hərtərəfli və dinamik yüksəliş dövrünü yaşayan respublikamızda sosial-iqtisadi sahədə dayanıqlılığı təmin edən, beynəlxalq prinsip və müddəalara uyğun olan qanunvericilik sistemi yaradılmış, dövlət təsisatlarında idarəçilik metodları yüksək standartlara uyğun şəkildə təşkil edilmişdir.

Korrupsiyaya qarşı mübarizəni dövlət siyasətinin əsas prioritetlərindən birinə çevirərək bu sahədə həm qanunvericilik, həm də institusional islahatlara start verilmiş, elektron idarəçiliyin tətbiqi, “ASAN xidmət” kimi innovativ layihələrin həyata keçirilməsi, məmur-vətəndaş təmasının azaldılması və şəffaflığın artırılması bu mübarizənin əsas istiqamətləri sırasında yer almışdır. Bu proses həmçinin beynəlxalq təcrübəyə əsaslanaraq aparılır və Azərbaycanın qlobal antikorrupsiya təşəbbüslərində fəal iştirakı ilə müşayiət olunur. Bütün bu tədbirlər korrupsiyanın qarşısının alınması və ictimai etimadın gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Həyata keçirilən köklü və sistemli islahatlar nəticəsində ölkədə korrupsiyaya qarşı sistemli mübarizənin aparılması istiqamətində görülən işlərin, təşkilati tədbirlərin səmərəliliyi yüksəlmiş, korrupsiyaya qarşı daha ciddi mübarizənin aparılmasında dövlət orqanlarının üzərinə düşən vəzifələrin həcmi və məsuliyyəti daha da artmışdır. Korrupsiyaya qarşı barışmaz mübarizənin aparılması dövlət siyasətinin əsas istiqamətini təşkil etdiyindən, korrupsiyaya qarşı preventiv

tədbirlərin görülməsi, ardıcıl islahatların aparılması, o cümlədən bu qəbildən olan cinayətlərin qarşısının alınması, onları törətmiş şəxslərə münasibətdə ciddi tədbirlərin həyata keçirilməsi məsələlərinə xüsusi diqqət yetirilir.

Hər bir hüquqi dövlət kimi Azərbaycan Respublikası da beynəlxalq və milli hüquq sisteminin əsas prinsiplərinə uyğun şəkildə korrupsiyaya qarşı mübarizə sahəsində düşünülmüş siyasət hazırlamışdır. Bu sahədə görülən tədbirlər çərçivəsində korrupsiyaya qarşı mübarizəyə dair milli strategiya və fəaliyyət planları qəbul edilmiş, yeni baxışlar və vəzifələr müəyyənləşdirilmişdir. Hazırda ölkəmizdə sosial dövlətin yeni modeli formalaşmışdır və dövlət siyasətinin əsas məqsədi insanların yüksək sosial rifahına nail olmaqdır.

Dövlət səviyyəsində görülmüş məqsədyönlü işlər korrupsiya və rüşvətxorluğa qarşı davamlı mübarizənin, dövlət başçısı cənab İlham Əliyevin neqativ təzahürlərin tam aradan qaldırılmasına yönəlmiş siyasi iradəsinin qətiyyətlə həyata keçirildiyinin göstəricisidir.

Korrupsiyaya qarşı mübarizə tədbirlərinin davamlılığını təmin etmək, həmçinin korrupsiyaya şərait yaradan halların qarşısının alınması, dövlət orqanlarının ictimaiyyət qarşısında hesabatlılığının daha da gücləndirilməsi, əhaliyə göstərilən xidmətlərin daha da təkmilləşdirilməsi və elektronlaşdırılması məqsədilə ölkə başçısının 4 aprel 2022-ci il tarixli 3199 nömrəli Sərəncamı ilə “Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı” *(bundan sonra – Milli Fəaliyyət Planı)* təsdiq edilmişdir.

Milli Fəaliyyət Planında korrupsiyaya qarşı mübarizə sahəsində qarşıya qoyulmuş əsas prioritet istiqamətlər və məqsədlər dövlət sektorunda idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi, özəl sektorda beynəlxalq standartlar əsasında antikorrupsiya standartlarının formalaşdırılması, müvafiq istiqamətlərdə qanunverici bazanın mütərəqqi beynəlxalq təcrübə əsasında təkmilləşdirilməsi, o cümlədən yerli özünüidarəetmədə aşkarlığın və ictimai iştirakçılığın təmin edilməsidir.

Milli Fəaliyyət Planı bir daha təsdiq edir ki, ölkəmizdə yerli özünüidarəetmə fəaliyyətinin təkmilləşdirilməsi və müasir

innovativ cəmiyyətin tələblərinə uyğunlaşdırılması dövlət siyasətinin ayrılmaz tərkib hissəsi, prioritet istiqamətidir.

Müəyyən edilmiş tapşırıqlar yerli özünüidarəetmənin bir sıra aktual problemlərinin həllinə, o cümlədən bələdiyyə əmlakının daşınmaz əmlakın dövlət reyestrində qeydiyyatının təmin olunmasına, yerli büdcə gəlirlərindən istifadə sahəsində şəffaflığın və hesabatlılığın artırılmasına, bələdiyyə torpaqlarının idarə edilməsi sahəsində innovativ üsulların tətbiq olunmasına, bələdiyyə üzv və qulluqçularında antikorrupsiya davranış modelinin formalaşdırılmasına yönəlmişdir.

Azərbaycan Respublikasında yürüdülən islahat konsepsiyaları hər bir dövrün spesifik tələbləri nəzərə alınaraq mərhələlərə bölünür, onun mümkün nəticələri öncədən görülür, ən əsası isə milli mənafeyə xidmət edəcək cəhətləri əvvəlcədən hesablanılır.

Korrupsiya, cəmiyyətin inkişafını əngəlləyən, dövlətin idarəetmə sisteminə və vətəndaşların hüquqlarına ciddi zərər vuran bir sosial xəstəlikdir. Bu fenomenin mahiyyəti və təzahür formalarının dərindən öyrənilməsi, xüsusilə yerli özünüidarəetmə orqanlarında, dövlətin şəffaflığını və vətəndaşların etibarını təmin etmək üçün əhəmiyyətlidir.

Bu metodik vəsait korrupsiyanın mahiyyətini və yerli özünüidarəetmə orqanlarında təzahür formalarını dərindən təhlil edərək, bu sahədə qarşıya çıxan problemləri müəyyən etmək və onların həlli yollarını təklif etmək məqsədilə hazırlanmışdır.

Aparılan ümumiləşdirmə və təhlillərin korrupsiyanın qarşısının alınması və idarəetmənin təkmilləşdirilməsi istiqamətində nailiyyətlərin əldə edilməsinə əhəmiyyətli dərəcədə töhfə verməsi arzu edilən nəticədir.

# I FƏSİL: KORRUPSİYANIN MAHİYYƏTİ VƏ YERLİ ÖZÜNÜİDARƏETMƏDƏ TƏZAHÜR FORMALARI

## 1.1. Korrupsiya anlayışı və korrupsiya cinayətləri ilə mübarizənin hüquqi əsasları

**Korrupsiya (latınca-corruptio)** satın alınmaq, ictimai və siyasi xadimlərin, dövlət məmurlarının və ya vəzifəli şəxslərin satın alınması və ya satılması deməkdir.

Korrupsiya — vəzifəli şəxslərin öz səlahiyyətlərindən şəxsi maraqları naminə sui-istifadə etməsi, rüşvət alma, mənimsəmə, vəzifə səlahiyyətlərini aşma, maraqlar toqquşması və digər qanunsuz davranışlarla dövlətin, ictimai maraqların və vətəndaşların zərərinə hərəkət etməsidir. Bu anlayış həm hüquqi, həm də sosial-iqtisadi kateqoriya kimi çıxış edir və idarəetmə sistemindəki çatışmazlıqların, qeyri-şəffaflığın və cavabdehlik mexanizmlərinin zəifliyinin nəticəsi olaraq formalaşır.

Korrupsiya insan və vətəndaşların hüquqlarının və azadlıqlarının təmin edilməsinə ciddi maneçilik törədir, xalqın dövlətə etimadını azaldır, hüquqi dövlət quruculuğuna ciddi əngəllər törədir, dövlətin funksionallığını iflic edir, ictimai inamı zədələyir. Bu və ya digər səbəblərdən korrupsiyaya qarşı mübarizə vacib hesab olunur.

Hər bir cəmiyyətə xarakterik korrupsiya problemləri mövcud olmaqla kökündə iqtisadi, siyasi, mədəni, tarixi faktorlar dayanır. Rüşvətxorluq, vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, nüfuz alveri, vəzifə səlahiyyətlərini aşma və vəzifə saxtakarlığı korrupsiyanın yalnız bəzi növləridir. İşgüzar fəaliyyətlərdə maraqların toqquşması, nepotizm (qohumbazlıq), favoritizm (ayrı-seçkilik), cəzasızlıq korrupsiyaya şərait yaradan halları nümunə kimi göstərmək olar. Qabaqlayıcı tədbirlər və effektiv mübarizə üçün qanunun

aliliyi, maarifləndirmə, hesabatlılıq, şəffaflıq, qanunsuz hallarla bağlı məlumat vermə, effektiv cəza mexanimzləri bəzi zəruri şərtlərdir.

Dünya Bankı tərəfindən istifadə edilən daha geniş tərif aşağıdakı kimidir: Korrupsiya dövlət və özəl sektordakı vəzifəli şəxslər tərəfindən elə bir davranışdır ki, bu zaman tutduqları vəzifədən düzgün olmayan tərzdə istifadə etməklə onlar özlərini və ya onlara yaxın olanları varlandırır, yaxud başqalarını bunu etməyə sövq edirlər. Korrupsiyanın bəzi növləri daxili xarakter daşıyır, onlar hökumət təşkilatının işçiləri işə götürmək və öz işçilərini idarə etmək, öz ehtiyatlarından səmərəli istifadə etmək, yaxud obyektiv daxili araşdırmalar aparmaq qabiliyyətinə müdaxilə edir. Korrupsiyanın digər növləri xarici xarakter daşıyır, belə ki, bu zaman müştəriləri, yaxud təchizatçıları manipulyasiya etmək, yaxud onlardan pul almaq və ya daxildəki informasiyadan bəhrələnmək üçün səy göstərilir. Digər növlər bazar əməliyyatlarına icazəsiz müdaxilə, məsələn, rəqabəti süni surətdə məhdudlaşdırmaq və monopoliya haqqı yaratmaq üçün dövlət səlahiyyətlərindən istifadə edilməsindən ibarətdir.

Korrupsiyanın daha dar tərifləri qeyri-qanuni davranışın xüsusi növlərinə istinad etmək üçün lazımdır. Məsələn, tədarük fırıldaqçılığı sahəsində Dünya Bankı korrupsiyalı praktikaya ”tədarük prosesində və ya müqavilənin icra edilməsində dövlət rəsmisinin hərəkətinə təsir etmək üçün hansısa qiymətli bir şeyin təklif edilməsi, verilməsi, alınması və ya tələb edilməsi” kimi tərif verir. Dünya Bankının tərifi dövlət siyasətini və proseslərini rəqabətdə üstünlük (fayda) üçün çevirən özəl agentlərin fəaliyyətini ehtiva edir. Adətən yüksək vəzifəli şəxsləri, böyük qərarları və ya müqavilələri və böyük miqdarda pul vəsaitlərinin mübadiləsini əhatə edən böyük korrupsiya ilə aşağı səviyyəli işçilərin, standart malların və xidmətlərin, kiçik miqdarda pulların cəlb olunduğu xırda korrupsiyanı bir-birindən fərqləndirmək çox zaman faydalıdır. Sistematik korrupsiya bütöv hökuməti və ya nazirliyi əhatə edir. Fərdi xarakter daşıyan korrupsiya daha çox təcrid olunmuş və qeyri-müntəzəm xarakter daşıyır. Rüşvət almaq və onu yaymaq üçün yaxşı düşünülmüş sistemlərin qurulduğu sindikat halında olan korrupsiya ilə ayrı-ayrı vəzifəli şəxslərin

nizamsız və koordinasiya olunmayan tərzdə rüşvət almaq istəməsi və ya bunun üçün rəqabət aparması ilə səciyyələnən qeyri-sindikat xarakterli korrupsiya arasında fərq vardır.

“Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununda korrupsiyaya aşağıdakı kimi anlayış verilmişdir:

**“korrupsiya** – vəzifəli şəxslərin öz statusundan, təmsil etdiyi orqanın (qurumun) statusundan, vəzifə səlahiyyətlərindən və ya həmin status və səlahiyyətlərdən irəli gələn imkanlardan istifadə etməklə qanunsuz olaraq maddi və sair nemətlər, imtiyazlar və ya güzəştləri istəməsi və ya alması, yaxud bu barədə təklif və ya vədi qəbul etməsi, habelə fiziki və hüquqi şəxslər tərəfindən qeyd edilən maddi və sair nemətlərin, imtiyazların və ya güzəştlərin qanunsuz olaraq vəzifəli şəxslərə təklif və ya vəd olunması, yaxud verilməsi.”

Korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlərin ictimai təhlükəliliyi ondan ibarətdir ki, şəxs qulluq səlahiyyətlərindən qulluq mənafelərinə zidd olaraq istifadə etməklə hüquqi və ya fiziki şəxslərin hüquqlarına və qanuni mənafelərinə, habelə cəmiyyətin və dövlətin qanunla qorunan mənafelərinə zərər vurur, vətəndaşların konstitusiya hüquq və azadlıqlarını pozur, hakimiyyət orqanlarını əhali arasında nüfuzdan salır.

İstənilən dövrdə, idarəetmə formasından və quruluşundan asılı olmayaraq dövlət vəzifəli şəxslərə öz xidməti öhdəliklərini icra etməyə dair xüsusi tələblər irəli sürür. Belə şəxslər tərəfindən həmin tələblərin pozulması müəyyən məsuliyyətə səbəb olur. Bu tamamilə başa düşüləndir və hakimiyyətin buna hüququ vardır.

İctimai münasibətlərin normal tənzimlənməsi dövlətin cəmiyyət həyatının müxtəlif sahələrində iştirak etmək, əhalinin fəaliyyətinin ən müxtəlif aspektlərinin təşkilini həyata keçirmək və onlara nəzarət etmək zərurətini yaradır. Bununla da dövlət tərəfindən səlahiyyətli orqanlar vasitəsilə ictimai hakimiyyətin həyata keçirilməsi zamanı yaranan münasibətlərin müxtəlifliyi şərtləndirilir.

Qüvvədə olan cinayət qanunvericiliyi bilavasitə dövlət hakimiyyətinin funksiyalarını həyata keçirən və dövlətin qarşısında duran vəzifələrin yerinə yetirilməsində iştirak edən

şəxslərin məsuliyyətini bütün digər kateqoriya idarəedənlərdən fərqləndirmişdir.

Azərbaycan Respublikasının 30 dekabr 2003-cü il tarixli Qanunu ilə təsdiq edilmiş “Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında” Konvensiyada və Azərbaycan Respublikasının 30 sentyabr 2005-ci il tarixli Qanunu ilə təsdiq edilmiş Birləşmiş Millətlər Təşkilatının “Korrupsiya əleyhinə” Konvensiyasında “vəzifəli şəxs” anlayışı verilmişdir.

Beynəlxalq Konvensiyaların tələbləri nəzərə alınaraq, habelə korrupsiyaya qarşı mübarizənin səmərəliliyinin artırılması məqsədi ilə 24 iyun 2011-ci il tarixdə “Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Həmin Qanuna əsasən CM-in 308-ci maddəsinin “Qeyd” hissəsi yeni redaksiyada verilərək “vəzifəli şəxs” anlayışına daxil olan subyektlərin dairəsi genişləndirilmişdir.

CM-in 308-ci maddəsinin “Qeyd” hissəsinə əsasən həmin Məcəllənin 33-cü (korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlər) fəslinin maddələrində “vəzifəli şəxs” dedikdə aşağıdakı şəxslər başa düşülür:

- hakimiyyət nümayəndələri, o cümlədən Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyən olunmuş qaydada dövlət orqanlarına seçilmiş və ya təyin edilmiş, yaxud xüsusi səlahiyyət əsasında dövlət və ya yerli özünüidarə orqanlarını təmsil edən şəxslər, zabit, gizir və ya miçman olan hərbi qulluqçular, dövlət qulluqçuları (dövlət qulluğunun xüsusi növündə çalışan şəxslər daxil olmaqla), bələdiyyə üzvləri və bələdiyyə qulluqçuları;
- dövlət orqanlarında seçkili vəzifələrə namizədliyi qanunla müəyyən edilən qaydada qeydə alınmış şəxslər;
- dövlət və bələdiyyə müəssisə, idarə və təşkilatlarının, digər kommersiya və qeyri-kommersiya təşkilatlarının rəhbərləri və işçiləri;
- dövlət və bələdiyyə müəssisə, idarə və təşkilatlarında, digər kommersiya və qeyri-kommersiya təşkilatlarında xüsusi səlahiyyət üzrə təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat funksiyalarını yerinə yetirən şəxslər;

- hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər;
- xarici ölkələrin dövlət orqanlarının vəzifəli şəxsləri, xarici ölkələrin seçkili dövlət orqanlarının üzvləri, beynəlxalq təşkilatların vəzifəli şəxsləri və digər qulluqçuları, beynəlxalq parlament assambleyalarının üzvləri;
- beynəlxalq məhkəmələrin hakimləri və digər vəzifəli şəxsləri, arbitrajların xarici və ya yerli arbitrləri, xarici və ya yerli andlı iclasçılar.

Qulluq mənafeyi əleyhinə olan cinayətlər yalnız şəxsin vəzifə səlahiyyətlərindən sui-istifadə etməsi yolu ilə törədilə bilər. Məhz bu baxımdan vəzifə səlahiyyətlərindən sui-istifadə cinayətlərinin tərkibinin açıqlanması böyük əhəmiyyət kəsb edir.

Vəzifə səlahiyyətlərindən sui-istifadənin obyekti dövlət, yerli özünüidarə orqanlarının, kommersiya və qeyri-kommersiya təşkilatlarının normal fəaliyyətidir. Əlavə obyekt qismində fiziki və ya hüquqi şəxslərin hüquqları və qanuni mənafeləri, habelə cəmiyyətin və dövlətin qanunla qorunan mənafeləri çıxış edir.

Korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlərin xüsusi subyektinin, yəni “vəzifəli şəxs” anlayışının düzgün müəyyən edilməsi həmin cinayətlərin tövsifi və şəxsin cinayət məsuliyyətinə cəlb olunması üçün mühüm əhəmiyyət kəsb edir.

Bu baxımdan Konstitusiya Məhkəməsi Azərbaycan Respublikasının Baş Prokurorluğunun sorğusu əsasında Cinayət Məcəlləsinin 308-ci maddəsinin "Qeyd" hissəsində nəzərdə tutulan "vəzifəli şəxs" anlayışının şərh olunmasına dair qərar qəbul etmişdir. Bu qərarın verilməsinin əsas səbəbi həmin anlayışın istintaq və məhkəmə təcrübəsində birmənalı şəkildə müəyyən edilməməsi və nəticədə hüquqi qeyri-müəyyənliyin yaranması olmuşdur.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 308-ci maddəsinin “Qeyd” hissəsində nəzərdə tutulmuş “vəzifəli şəxs” anlayışının şərh olunmasına dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 19.07.2013-cü il tarixli Qərarından irəli gələrək:

- qanunvericiliklə müəyyən edilmiş qaydada tabeçiliyində olan və ya olmayan şəxslər barəsində sərəncam vermək səlahiyyətlərinə və ya hüquqi və fiziki şəxslər üçün icrası məcburi olan qərarlar qəbul etmək hüququna malik olan dövlət qulluqçuları, bələdiyyə üzvləri və bələdiyyə qulluqçuları, zabit, gizir və ya miçman olan hərbi qulluqçular hakimiyyət nümayəndəsi kimi vəzifəli şəxs hesab olunurlar;

- dövlət və bələdiyyə müəssisə, idarə və təşkilatlarının, habelə digər kommersiya və qeyri-kommersiya təşkilatlarının işçiləri, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər yalnız hüquqi əhəmiyyət kəsb edən, yəni başqa şəxslər üçün hüquq münasibətlərinin əmələ gəlməsi, dəyişməsi və ya xitam olunması ilə nəticələnən və ya nəticələnə bilən hərəkətlər etdikdə vəzifəli şəxs hesab olunurlar.

Azərbaycan Respublikasında korrupsiyaya qarşı mübarizə dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Bu sahədə hüquqi baza aşağıdakı əsas sənədlərlə müəyyən olunur:

- Azərbaycan Respublikasının Konstitusiyası — idarəetməsinin şəffaf və qanunçuluq prinsiplərinə əsaslanmalı olduğunu təsbit edir;
- “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanunu (13 yanvar 2004-cü il) — korrupsiya ilə əlaqədar hüquqpozmaların aşkarlanması və qarşısının alınmasına dair tələbləri, publik hüquqi şəxslərin, vəzifəli şəxslərin fəaliyyətinin qanuniliyinin, şəffaflığının və səmərəliliyinin təmin edilməsi ilə bağlı öhdəlikləri müəyyən edir;
- Azərbaycan Respublikasının Cinayət Məcəlləsi — korrupsiyaya dair konkret cinayət tərkiblərini əhatə edir: rüşvət alma (m. 311), rüşvət vermə (m. 312), vəzifədən sui-istifadə (m. 308), vəzifə səlahiyyətlərini aşma (m. 309) və s.;
- Etik davranış qaydaları, Korrupsiyaya qarşı mübarizə üzrə Milli Fəaliyyət Planları — preventiv tədbirlərin və etika standartlarının tətbiqini təmin edir.

“Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, korrupsiya

hüquqpozmaları ilə bağlı müraciətlərə baxılarkən həmin Qanunun xüsusiyyətləri nəzərə alınır. Müraciət daxil olduqda dövlət orqanının rəhbəri xidməti araşdırma təyin edir. Bu araşdırma daxili nəzarət xidməti tərəfindən 20 iş günü müddətində tamamlanmalıdır. Zərurət yarandıqda bu müddət 10 iş günü müddətində uzadıla bilər.

Araşdırmanın nəticələrinə əsasən, dövlət orqanının rəhbəri ya məsuliyyət tədbirləri (müraciətin əsaslı olduğu təsdiq edildikdə, eyni zamanda əməldə mülki-hüquqi və ya inzibati məsuliyyət yaradacaq əlamətlər olduqda Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq tədbirlər görülməsi, cinayət əlamətləri olan hüquqpozmalar aşkar edildikdə, müvafiq sənədlərin Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilməsi barədə; müraciətin əsaslı olması təsdiq edildikdə, lakin əməldə mülki-hüquqi, inzibati və ya cinayət məsuliyyəti yaradacaq əlamətlər olmadıqda aidiyyəti şəxslərin intizam məsuliyyətinə cəlb edilməsi barədə) görür, ya da müraciətin əsassız olduğunu təsdiq edərək şikayət üzrə icraata xitam verir. Müraciət edən şəxsə qəbul edilən qərar barədə əsaslandırılmış cavab verilir və şikayət hüququ izah olunur. Dövlət orqanları istisna olmaqla, digər müraciətə baxan subyektlərdə korrupsiya ilə əlaqədar hüquqpozmalar barədə müraciətlərə isə 20 iş günü müddətində baxılır.

Korrupsiyaya qarşı mübarizənin davamlı olması, korrupsiyanın qarşısının alınması ilə bağlı müasir çağırışlara uyğun effektiv mexanizmlərin tətbiq edilməsi xüsusi əhəmiyyət kəsb edir. Buna görə də həm beynəlxalq, həm də milli səviyyədə korrupsiyaya qarşı mübarizədə yeni təşəbbüslərin irəli sürülməsi zəruridir.

Beynəlxalq səviyyədə Azərbaycan Avropa Şurasının Korrupsiyaya qarşı Mübarizə Aparan Dövlətlər Qrupuna (GRECO) və Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) təsisi barədə sazişə qoşulmuş və Birləşmiş Millətlər Təşkilatının korrupsiya əleyhinə Konvensiyasını təsdiq etmişdir. Bu sənədlər korrupsiyanın qarşısının alınması, aşkarlanması və cəzalandırılması üçün beynəlxalq standartlar müəyyən edir.

"Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında" Avropa Konvensiyasının Əlavə Protokolu 2003-cü ildə imzalanıb və Azərbaycan Respublikası müvafiq bəyanat ilə 2013-cü ildə ona qoşulub. Konvensiya korrupsiya ilə mübarizə məqsədi ilə dövlət vəzifəli şəxslərin, o cümlədən hakimlər və prokurorların, hüquqi şəxslərin, vəzifə və funksiyalarını icra edərkən korrupsiya hüquqpozmaları ilə bağlı məsuliyyət tədbirlərini tənzimləyir.

Konvensiya, milli və xarici vəzifəli şəxslərin, beynəlxalq təşkilatların nümayəndələrinin, özəl sektorun iştirakçılarının rüşvətlə ələ alınması, nüfuz alveri, korrupsiyadan əldə olunan gəlirlərin leqallaşdırılması kimi korrupsiya əməllərinin cinayət kimi tövsif edilməsini tələb edir. Dövlətlər bu hüquqpozmaların qarşısını almaq üçün öz qanunvericiliyində və hüquq-mühafizə sistemində dəyişikliklər etməlidir.

Dövlətlər həmçinin Konvensiya çərçivəsində digər ölkələrlə korrupsiya cinayətlərinin araşdırılması, istintaqı və cinayət məsuliyyətinə cəlb edilməsində geniş beynəlxalq əməkdaşlıq etməlidir. Sözügedən Konvensiyaya uyğun olaraq cinayət kimi tövsif edilən əməllər Tərəflər arasında qüvvədə olan ekstradisiya haqqında hər hansı müqaviləyə uyğun surətdə ekstradisiyaya əsas olan cinayətlər sırasına daxil olan cinayətlər hesab edilir.

Korrupsiya ilə mübarizə çərçivəsində qəbul edilən digər sənəd - "Korrupsiya ilə əlaqədar mülki-hüquqi məsuliyyət haqqında" Konvensiya korrupsiya əməllərindən zərər çəkən şəxslərə dəymiş zərərin ödənilməsi üçün hüquqi müdafiə vasitələri təqdim edir. Bu Konvensiyaya uyğun olaraq, dövlətlər korrupsiya nəticəsində dəymiş maddi və qeyri-maddi zərərin tam ödənilməsi üçün hüquqi tədbirlər görməlidir.

Hər iki Konvensiya korrupsiyaya qarşı mübarizədə beynəlxalq əməkdaşlığı, sübutların toplanmasını, xarici məhkəmə qərarlarının tanınması və icrasını təşviq edir. Bu tədbirlər korrupsiyanın qlobal səviyyədə qarşısının alınmasına və korrupsiya cinayətlərinin səmərəli şəkildə araşdırılmasına yönəlib.

2004-cü il fevralın 27-də imzalanmış Birləşmiş Millətlər Təşkilatının Korrupsiya əleyhinə Konvensiyası 30 sentyabr

2005-ci il tarixli Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmişdir.

Avropa Konvensiyası korrupsiyanın cəmiyyətin stabilliyi və təhlükəsizliyi üçün ciddi təhdidlər yaratdığını, demokratik institutları və dəyərləri, etik normaları və ədaləti sarsıtdığını vurğulayır. Preambulada korrupsiyanın digər cinayətkarlıq formaları, xüsusən mütəşəkkil cinayətkarlıq və iqtisadi cinayətkarlıq, o cümlədən pul yuyulması ilə əlaqəli olduğunu qeyd edir. Konvensiya korrupsiyanın qarşısının alınması və ona qarşı mübarizənin ümuməhatəli va çoxşaxəli yanaşma tələb etdiyini, qanunsuz əldə edilmiş var-dövlətin demokratik institutlara va hüquq qaydalarına ciddi zərər vura biləcəyini əsas gətirir.

Konvensiyanın məqsədləri bunlardır:

1. Korrupsiyanin qarşısının alınması və ona qarşı mübarizənin səmərəliliyini artırmaq üçün tədbirlərin təşviqi və gücləndirilməsi;
2. Korrupsiyaya qarşı mübarizə və aktivlərin geri qaytarılması üzrə beynəlxalq əməkdaşlıq və texniki yardımı dəstəkləmək;
3. Dövlət idarəçiliyində vicdanlılıq və məsuliyyətliliyin təşviqi.

Məhkəmə hakimiyyətinin müstəqilliyi qorunaraq, dövlətlər korrupsiya risklərini azaltmaq üçün məhkəmə və prokurorluq orqanlarında tədbirlər görməlidirlər. Konvensiya rüşvətlə ələalma, nüfuz alveri, qanunsuz varlanma va digər korrupsiya amillərinin milli qanunvericilikdə cinayət kimi təsnif edilməsini tələb edir.

Həmçinin Konvensiya, yalan ifadə verməyə təhrik və ya hüquq-mühafizə orqanlarına müdaxilə kimi əməllərin cinayət kimi təsnif edilməsini tələb edir. İştirakçı dövlətlər korrupsiyaya dair məlumat verən şəxslərə cəzanın yüngülləşdirilməsi və ya cinayət təqibindən immunitet verilməsi məsələlərini də nəzərdən keçirməlidirlər.

Cinayət-hüquqi əməkdaşlıq məsələlərində, qarşılıqlı hüquqi yardım, ekstradisiya və birgə istintaq kimi tədbirlər də nəzərdə tutulur. Korrupsiya ilə əlaqədar işlərdə dövlətlər arasında geniş əməkdaşlıq təşviq edilir.

Korrupsiya hüququn aliliyinə, idarəetmədə ədalət və effektivliyə ciddi zərbə vurur. Bu, vətəndaşların dövlətə və yerli özünüidarə orqanlarına inamını azaldır, iqtisadi inkişafı ləngidir və sosial bərabərsizliyi dərinləşdirir.

Korrupsiyaya qarşı hüquqi əsasların mövcudluğu kifayət etmir — onların real icrası üçün effektli mexanizmlər, güclü institusional çərçivə və ictimai nəzarət mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan hüquqi çərçivə ilə yanaşı, korrupsiyanın sosial səbəbləri, motivləri və struktur riskləri də nəzərə alınmalıdır.

Korrupsiyanın yaranmasına səbəb olan başlıca amillər:

- İdarəetmə sistemində şəffaflığın olmaması;
- Məmurlar arasında məsuliyyət və cavabdehlik mexanizmlərinin zəifliyi;
- Əməkhaqqı səviyyəsinin aşağı olması və sosial təminat problemləri;
- Cəzasızlıq mühiti və korrupsiyaya görə real məsuliyyət tədbirlərinin olmaması;
- Qanunvericilikdə boşluqlar və qeyri-müəyyənlik;
- İctimai iştirakçılığın və medianın azadlığının məhdudluğu.

Hüquqi mexanizmlərlə yanaşı, ictimai maarifləndirmə, antikorrupsiya mədəniyyətinin formalaşdırılması və erkən xəbərdarlıq sistemlərinin qurulması korrupsiyanın qarşısının alınmasında mühüm yer tutur.

## 1.2. Yerli özünüidarəetmədə korrupsiya riskləri

Yerli özünüidarəetmə orqanları – bələdiyyələr əhalinin gündəlik həyatına birbaşa təsir göstərən qərarlar qəbul edən, torpaq münasibətləri, yerli vergilər, sosial yardım, kommunal xidmətlər və digər sahələr üzrə fəaliyyət göstərən institutlardır. Bu yaxınlıq və vətəndaşlarla birbaşa təmas, eyni zamanda bu qurumları daha çox korrupsiya risklərinə məruz qoyur.

"Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nda *(bundan sonra – Milli Fəaliyyət Planı)* nəzərdə tutulmuş korrupsiyaya qarşı mübarizə üzrə qanunvericilik bazasının təkmilləşdirilməsi sahəsində tədbirlərdən irəli gələrək Baş Prokurorluğun təklifləri əsasında hazırlanmış və Avropa Şurası ekspertlərinin tövsiyələri nəzərə alınmaqla təkmilləşdirilmiş, korrupsiya risklərinin müəyyən edilməsi, onların qiymətləndirilməsi, habelə qarşısının alınması üçün həyata keçirilən tədbirlərin tənzimlənməsi məqsədi daşıyan "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 07.03.2025-ci il tarixli Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir.

Dəyişikliklərə əsasən "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa yeni "korrupsiya riski", "korrupsiya risklərinin idarə edilməsi", "səlahiyyətli struktur bölmə (şəxs)" anlayışları daxil edilmiş, "korrupsiya" anlayışı genişləndirilmişdir.

Korrupsiya riski – korrupsiya hüquqpozmalarının və ya korrupsiyaya şərait yaradan hüquqpozmaların törədilməsi ehtimalı.

Korrupsiya risklərinin idarə edilməsi – korrupsiya risklərini azaltmaq məqsədilə korrupsiya risklərinin və həmin risklərə uyğun olaraq hədəflərin müəyyən edilməsi, eləcə də həmin

risklərin təhlili, qiymətləndirilməsi və qarşısının alınması üzrə tədbirlər görülməsi.

Dövlət və yerli özünüidarəetmə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə, publik hüquqi şəxslərdə və büdcə təşkilatlarında (bundan sonra - orqanda (qurumda)) hər il yanvarın 15-dən aprelin 15-dək əvvəlki ili əhatə edən korrupsiya risklərinin müəyyən edilməsi, təhlili və qiymətləndirilməsi aparılır. Korrupsiya ilə əlaqədar hüquqpozmalar haqqında daxil olan müraciətlərin ümumiləşdirilməsinin nəticələrinə əsasən fəaliyyətindən daha çox şikayətlərin daxil olduğu struktur bölmədə və ya tabeliyində olan qurumda orqanın (qurumun) rəhbərinin qərarına əsasən digər müddətlərdə də risklərin müəyyən edilməsi, təhlili və qiymətləndirilməsi keçirilə bilər.

Korrupsiya riskləri, həmin risklərə uyğun olaraq müəyyən edilən hədəflər, eləcə də risklərin qiymətləndirilməsinin nəticələri və bununla əlaqədar cari il üçün müəyyən edilən tədbirlər, həmçinin əvvəlki il üzrə müəyyən edilmiş tədbirlərə dair görülmüş işlər barədə məlumatlar hər il iyunun 1-dək Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına təqdim edilməlidir. Korrupsiya riskləri, həmin risklərə uyğun olaraq müəyyən edilən hədəflər, eləcə də risklərin qiymətləndirilməsinin nəticələri və görülmüş işlər barədə məlumatlar dövri olaraq ictimaiyyətə açıqlanacaqdır.

Orqanların (qurumların) fəaliyyətində korrupsiya risklərinin idarə edilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

Korrupsiyanın yerli səviyyədə təzahür formaları daha mürəkkəb, çoxşaxəli və gündəlik qərar qəbuletmə proseslərinə sıx bağlıdır.

- *Torpaq münasibətləri sahəsində risklər*

Ən ciddi korrupsiya riskləri bələdiyyələrin torpaq münasibətləri sahəsində üzə çıxır. Bu sahə həm iqtisadi dəyərinə, həm də normativ çərçivənin zəifliyinə görə korrupsiya üçün ən həssas sahələrdən biri sayılır:

- Torpaq sahələrinin satışında və ya icarəyə verilməsində bələdiyyə iclaslarının formal keçirilməsi;
- Hərracların keçirilməməsi və ya saxtalaşdırılması;
- Torpaqların yaxın şəxslərə və ya əlaqəli şəxslərə güzəştli şərtlərlə verilməsi;
- Torpaqların təyinatının qanunsuz dəyişdirilməsi və tikinti məqsədilə istifadəyə verilməsi;
- Rəsmi sənədləşmə zamanı süni qiymətlərin tətbiqi və qeyri-qanuni ödənişlər.

Korrupsiya halları nəticəsində torpaq münasibətlərində şəffaflıq pozulur, əhalinin etimadı azalır və bələdiyyə gəlirlərinin formalaşmasında itkilər baş verir.

-*Büdcə və maliyyə fəaliyyətində korrupsiya riskləri*

Bələdiyyə büdcəsinin formalaşdırılması və xərclənməsi zamanı da korrupsiyaya yol açan hallara rast gəlinir. Bu sahədə rastlanan risklər:

- Büdcə planlaşdırmasının şəffaf olmaması və vətəndaşların prosesə cəlb edilməməsi;
- Maliyyə vəsaitlərinin tender və satınalmalar vasitəsilə qeyri-qanuni şəkildə ayrılması;
- Şişirdilmiş qiymətlərlə müqavilələrin bağlanması;
- Maliyyə hesabatlarının ictimaiyyətə təqdim olunmaması və ya təhrif edilməsi;
- Nəzarət mexanizmlərinin zəifliyi və daxili audit sisteminin olmaması.

Bu halların qarşısının alınmaması büdcə vəsaitlərinin qeyri-effektiv istifadəsinə, mənimsəmələrə və korrupsiya mühitinin güclənməsinə səbəb olur.

-*Kadr təyinatları və maraqlar toqquşması*

Bələdiyyə strukturunda çalışan şəxslərin təyinatı da korrupsiya riskləri doğuran amillərdəndir. Qeyri-şəffaf təyinatlar, qohumbazlıq, tanışlıq və şəxsi maraqlara əsaslanan işə qəbul və yüksəlmələr bu sahədə korrupsiyanın yayılmasına səbəb olur.

Maraqlar toqquşması halları aşağıdakı formalarda təzahür edir:

- Bələdiyyə üzvlərinin öz yaxınlarına torpaq sahəsi və ya sosial yardım ayırması;
- Eyni şəxsə həm qərar qəbuletmə, həm də icra funksiyalarının verilməsi;
- Şəxsi biznes maraqları ilə bələdiyyə resursları arasında ziddiyyətlərin yaranması.

Etik davranış qaydalarının zəif tətbiqi bu riskləri daha da artırır.

*- İctimai iştirakçılığın zəifliyi və hesabatlılığın olmaması*

Vətəndaşların bələdiyyə idarəetməsində iştirakı nə qədər zəifdirsə, korrupsiya riskləri bir o qədər yüksək olur. Aşağıdakı amillər ictimai iştirakçılığın zəifliyinə səbəb olur:

- Bələdiyyə qərarlarının ictimai müzakirəyə çıxarılmaması;
- İclasların bağlı qapılar arxasında keçirilməsi;
- Vətəndaş təklif və şikayətlərinin nəzərə alınmaması;
- İllik hesabatların dərc olunmaması və ya formal xarakter daşıması.

Bu, vətəndaşlarla bələdiyyə arasında informasiya uçurumunun yaranmasına, nəticədə isə korrupsiyanın gizli qalmasına səbəb olur. Eyni zamanda:

- Hesabatların gec təqdim olunması və ya təhrif olunması;
- Nəzarət mexanizmlərinin regionlar üzrə qeyri-bərabər tətbiqi;
- Hüquqi rəy və göstərişlərin icrasına məcburetmə vasitələrinin zəifliyi korrupsiya hallarının aşkarlanmasını çətinləşdirir.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində istintaqı aparılmış cinayət işləri üzrə təhlillər aşağıdakı pozuntuların daha çox törədilməsini müəyyən edir:

➢ Bələdiyyələrin mülkiyyətinə aid olmayan, Dövlət Neft Şirkətinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və digər qurumların balansında olan torpaq sahələrinin mülkiyyətə, istifadəyə və ya icarəyə ayrılması barədə qanunsuz qərarların verilməsi;

➢ Kənd təsərrüfatı təyinatlı torpaq sahəsində qanunsuz olaraq tikinti işləri aparmaqla fərdi yaşayış evi

tikilməsinə icazə verilməsi müqabilində vətəndaşlardan rüşvət alınması;

- Bələdiyyə üzvlərinin ümumi istifadəsində olan və bələdiyyənin perspektiv inkişaf planı üçün nəzərdə tutulan torpaq sahələrinin mülkiyyətə, istifadəyə və ya icarəyə ayrılması barədə qanunsuz qərarların verilməsi;
- Bələdiyyənin vəzifəli şəxsləri tərəfindən bələdiyyənin inzibati ərazisində torpaq sahələrinin ailə üzvlərinin və ya yaxınlarının adına uzun müddətli icarəsini rəsmiləşdirməklə həmin torpaq sahələrindən öz şəxsi məqsədlərinə uyğun istifadə etməsi;
- Ayrı-ayrı şəxslər tərəfindən bələdiyyə mülkiyyətində olan torpaq sahələrinin qanunsuz şəkildə tutulmasından sonra orada aparılmış tikinti işlərinin qanuniləşdirilməsi məqsədilə bələdiyyələr tərəfindən həmin ərazilərin qeyd olunan şəxslərin mülkiyyətinə verilməsinə dair qanunsuz qərarların qəbul edilməsi;
- "Bələdiyyələrə dair Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə" 23.10.2007-ci il tarixli Qanunun bələdiyyə torpaqları üzərində mülkiyyət, istifadə və icarə hüquqlarının yalnız torpaq hərracları və ya müsabiqələri vasitəsilə əldə edilə bilinməsi barədə tələblərinin pozularaq, torpaq sahələrinin həmin Qanunun qüvvəyə mindiyi 01.12.2007-ci il tarixdən sonra da mülkiyyətə, istifadəyə və ya icarəyə ayrılması;
- Torpaq sahəsinin mülkiyyətə, istifadəyə və ya icarəyə ayrılması barədə qərarların dəyəri ödənildikdən əvvələ rəsmiləşdirilməsi və 2007-ci il 23 oktyabr tarixli Qanunun qüvvəyə mindiyi gündən əvvəlki tarixə saxtalaşdırılması, digər rəsmi sənədlərin saxtalaşdırılması;
- Bələdiyyənin vəzifəli şəxsləri tərəfindən torpaq sahəsinin vətəndaşın mülkiyyətinə və ya icarəyə verilməsinə köməklik göstərməsi adı ilə rüşvət alınması;
- Bələdiyyənin vəzifəli şəxsləri tərəfindən vəzifəli şəxsin istifadəsinə köhnə tarixə saxta icarə müqaviləsi, alqı-satqı müqaviləsi, bələdiyyə iclas protokolundan çıxarış

və bələdiyyə büdcəsinə ödənişlər həyata keçirilməsinə dair saxta qəbzlər əsasında vətəndaşdan rüşvət alınması.

Yerli özünüidarəetmə səviyyəsində korrupsiya riskləri struktur, hüquqi və sosial səbəblərlə əlaqədardır. Bu səbəbləri aradan qaldırmaq üçün yalnız normativ bazanın gücləndirilməsi deyil, həm də idarəetmə mədəniyyətinin dəyişməsi, ictimai nəzarətin institusional formaya salınması və elektron idarəetmənin tətbiqi mühüm rol oynayır. Nəticə etibarilə, yerli səviyyədə korrupsiya risklərinin effektiv idarə olunması üçün hüquqi, institusional və ictimai nəzarət mexanizmlərinin gücləndirilməsi, şəffaflığın artırılması və ictimai iştirakçılığın təmin olunması əsas şərtdir.

# II FƏSİL. Yerli özünüidarəetmə orqanlarında korrupsiyaya qarşı hüquqi və institusional mexanizmlər

## 2.1. Azərbaycan Respublikasının korrupsiyaya qarşı mübarizə üzrə Milli Fəaliyyət Planının əhəmiyyəti

Azərbaycan Respublikası dövlət idarəçiliyinin bütün səviyyələrində korrupsiyaya qarşı mübarizəni prioritet istiqamət olaraq qəbul etmiş və bu sahədə mühüm hüquqi və institusional islahatlar həyata keçirmişdir. Bu mübarizənin mərkəzində korrupsiyaya qarşı fəaliyyətin sistemli, məqsədyönlü və ölçülə bilən formada aparılması dayanır.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2022-ci il 4 aprel tarixli Sərəncamı ilə "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın (*bundan sonra – Milli Fəalliyyət Planı*) qəbul edilməsi isə məhz bu baxımdan xüsusi əhəmiyyətə malikdir.

Həmin sənədin ilkin hazırlanma prosesinə Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının 2020-ci il 15 sentyabr tarixli Qərarının 7-ci hissəsinə uyğun olaraq başlanılmış, aidiyyəti dövlət qurumlarından daxil olmuş təkliflər əsasında Baş Prokurorluq və Ədliyyə Nazirliyi tərəfindən birgə təhlillər aparılmış və sənədin layihəsi hazırlanaraq Komissiyaya təqdim edilmişdir. Sənədin həm dövlətin, həm də cəmiyyətin mənafelərinə xidmət edəcəyi nəzərə alınaraq, növbəti mərhələdə fəaliyyət planının layihəsi qeyri-hökumət təşkilatları və vətəndaş cəmiyyəti üzvlərinin iştirakı ilə geniş müzakirə edilmiş, onların rəy və təklifləri diqqətə alınmaqla məzmunu daha da təkmilləşdirilmişdir.

Korrupsiyaya qarşı mübarizə sahəsində kompleks tədbirləri özündə cəmləşdirən konseptual sənədin ətraflı təhlili onun mahiyyətinə varmağa və icra edilməsinin gələcəkdə hansı müsbət nəticələr doğuracağını əvvəlcədən proqnozlaşdırmağa imkan verir. Sənəddə 6 prioritet və hər biri ilkin, aralıq və yekun nəticə mərhələlərinə bölünməklə hədəflənən 62 mühüm vəzifə müəyyən edilmişdir.

Belə ki, qanunvericilik bazasının təkmilləşdirilməsi sahəsində tədbirlərin görülməsini nəzərdə tutan 1-ci Prioritet Sahədə (Korrupsiyaya qarşı mübarizə üzrə qanunvericilik bazasının təkmilləşdirilməsi sahəsində tədbirlər) dövlət orqanlarının fəaliyyətində korrupsiya risklərinin müəyyən edilməsi, təhlili və qarşısının alınması, korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxslərin müdafiəsi, vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların elektron formada təqdim edilməsi, xüsusi müsadirə institutunun effektivliyinin təmin edilməsi və digər bu kimi 11 aktual istiqamət öz əksini tapmışdır.

Milli Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərdən biri kimi dövlət orqanlarında korrupsiya risklərinin qiymətləndirməsini həyata keçirməklə, belə halların miqyasının ölçülməsi, mənbəyinin müəyyən edilməsi, eləcə də ona şərait yaradan amillərin qarşısının alınması sahəsində görülən işlərin səmərəliliyi daha da artırmış olacaqdır.

Növbəti belə tədbir kimi, qüvvədə olan qanunvericilikdə məhdud formada təsbit edilmiş korrupsiya hüquqpozmaları barədə məlumat verən şəxslərin müdafiəsi institutunun, vəzifəli şəxslərin fəaliyyətində maraqlar toqquşması, habelə maliyyə xarakterli məlumatların təqdim edilməsi işinin təkmilləşdirilməsi ilə latent cinayətkarlığa və qanunsuz varlanmaya qarşı mübarizə daha da gücləndiriləcəkdir.

Korrupsiyanın qarşısının alınması, şəffaflığın gücləndirilməsi, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılması və terrorçuluğa qarşı mübarizə tədbirlərini özündə ehtiva edən 2-ci (Korrupsiyanın qarşısının alınması və şəffaflığın gücləndirilməsi sahəsində tədbirlər) və 3-cü Prioritet sahələrdə (Maliyyə şəffaflığının təmin edilməsi və cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə (ÇPY/TM) qarşı mübarizə

sahəsində tədbirlər) İSO 37001 “Antikorrupsiya idarəetmə sistemləri” beynəlxalq standartının tətbiqi, dövlət satınalmalarında şəffaflığın artırılması və satınalmada iştirak edən şirkətlər qarşısında benefisiar mülkiyyətçinin açıqlanması öhdəliyinin qanunla müəyyən edilməsi, ÇPY/TM cinayətlərinin aşkarlanması və istintaqının aparılması səmərəliliyinin artırılması, o cümlədən bu kimi 23 vəzifə müəyyən edilmişdir. Sözügedən prioritetlər üzrə nəzərdə tutulan tədbirlərdən 7-sinin yerinə yetirilməsi Baş Prokurorluğa tövsiyə olunmuşdur.

Belə ki, İSO 37001 “Antikorrupsiya idarəetmə sistemləri” beynəlxalq standartı istənilən təşkilatın fəaliyyətində tətbiq oluna bilməklə, korrupsiya risklərinə qarşı effektiv idarəçiliyi təmin edir. Bu standartın Qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, özəl sektorda qurulmasının təşviqi ilə sahibkarlıq subyektlərinin istər yerli, istərsə də xarici bazarlarda iqtisadi və işgüzar nüfuzları daha da möhkəmlənəcəkdir.

Milli Fəaliyyət Planında nəzərdə tutulan islahatların digər ünvanı kimi dövlət satınalmalarında iştirak edən şirkətlərə benefisiar mülkiyyətçinin (pul vəsaitləri və ya digər əmlakla əlaqədar əməliyyatlardan son nəticədə iqtisadi və ya hər hansı digər fayda əldə edən fiziki və ya hüquqi şəxs, o cümlədən xeyrinə əqdlərin həyata keçirildiyi hüquqi şəxsin əsl sahibi və ya müştəriyə nəzarəti həyata keçirən və (və ya) adından maliyyə əməliyyatlarının və ya digər əqdlərin həyata keçirildiyi fiziki şəxs və ya hüquqi şəxsə nəzarəti həyata keçirən fiziki şəxs deməkdir) açıqlanması öhdəliyinin müəyyən edilməsi ilə özəl sektorda şəffaflığın artırılması təmin ediləcəkdir.

Bundan başqa, dövlət xidmətlərinin və idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi sahəsində məsələlərlə bağlı olan 4-cü Prioritet Sahədə dövlət xidmətlərinin proaktiv və elektron formada göstərilməsi işinin genişləndirilməsi, informasiya sistemləri arasında inteqrasiyanın təmin edilməsi, dövlət orqanları (qurumları) tərəfindən göstərilən xidmətlərdən istifadənin genişləndirilməsi məqsədilə elektron imzanın əldə edilməsi imkanlarının sadələşdirilməsi və digər bu kimi 14 müddəa öz əksini tapmışdır.

Son olaraq, korrupsiyaya qarşı mübarizə sahəsində vətəndaş cəmiyyəti institutları və beynəlxalq tərəfdaşlarla əməkdaşlığın inkişaf etdirilməsini, eləcə də bu sahədə maarifləndirmə işinin aparılmasını nəzərdə tutan 5-ci və 6-cı Prioritet Sahələrdə dövlət orqanlarında ictimai iştirakçılığın gücləndirilməsi Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupu (GRECO), İqtisadi Əməkdaşlıq və İnkişaf təşkilatı (OECD), Beynəlxalq Anti-Korrupsiya Akademiyası (IACA), Beynəlxalq Prokurorlar Assosiasiyası (IAP) və digər beynəlxalq təşkilatlarla tərəfdaşlığın gücləndirilməsini, onların tövsiyələrinin icra edilməsi, müxtəlif hədəf qrupları üzrə təlimlərin keçirilməsi kimi 14 tədbir müəyyən edilmişdir.

Xüsusilə vurğulanmalıdır ki, dövlət başçısının fəaliyyətinin prioritet istiqamətlərindən olan korrupsiya və rüşvətxorluğa qarşı mübarizədə beynəlxalq əməkdaşlığın önəmini və qarşılıqlı təcrübənin paylaşılmasının əhəmiyyətini nəzərə almaqla bu sahədə ixtisaslaşmış beynəlxalq təşkilatlarla və digər dövlətlərin müvafiq səlahiyyətli orqanları ilə əlaqələrin qurulmasına, habelə daha da inkişaf etdirilməsinə xüsusi diqqət yetirilməkdədir.

Beynəlxalq əməkdaşın digər bir parlaq nümunəsi kimi 2024-cü il noyabr ayının 1-də Bakı şəhərində Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin Baş Prokurorları Şurasının təsis edilməsini göstərmək olar. Türkdilli ölkələr arasında insan hüquq və azadlıqlarının etibarlı müdafiəsinə, cinayətkarlığın bütün formalarına qarşı mübarizədə səylərin birləşdirilməsinə və qarşılıqlı əməkdaşlığın daha səmərəli həyata keçirilməsinə təkan verəcək bu mühüm təsisatın fəaliyyət istiqamətlərindən birini də məhz korrupsiyaya qarşı mübarizə fəaliyyəti təşkil edir.

Təqdirəlayiq haldır ki, korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işlərin nəticəsi kimi, bu sahədə ixtisaslaşmış olan əksər beynəlxalq təşkilatların hesabatlarında ölkəmizdə bu istiqamətdə həyata keçirilən tədbirlər müsbət dəyərləndirilir. Bununla belə, sonuncu prioritet istiqamətin icrası istər beynəlxalq əməkdaşlığın daha da dərinləşdirilməsi, istərsə də ölkəmizin beynəlxalq reytinqlərdə mövqeyinin daha da yaxşılaşdırılması baxımından xüsusi əhəmiyyət kəsb edir.

## Milli Fəaliyyət Planının məqsədi və hüquqi əsası

Milli Fəaliyyət Planının hüquqi əsası Azərbaycan Respublikasının Konstitusiyası, "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu, "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Qanun və digər normativ aktlarla yanaşı, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq konvensiyalar, o cümlədən BMT-nin Korrupsiya əleyhinə Konvensiyası və Avropa Şurasının GRECO mexanizmi ilə də möhkəmləndirilmişdir. Sənəd korrupsiyanın qarşısının alınması, aşkara çıxarılması və cəzalandırılması istiqamətində strateji məqsədləri və fəaliyyət istiqamətlərini müəyyən edir.

Planın əsas məqsədi korrupsiya risklərinin azaldılması, dövlət və yerli özünüidarəetmə orqanlarında şəffaflığın və hesabatlılığın artırılması, elektron idarəçiliyin tətbiqi, etik davranış normalarının gücləndirilməsi və ictimai nəzarət mexanizmlərinin inkişaf etdirilməsidir. Plan eyni zamanda korrupsiyaya qarşı mübarizədə ictimai iştirakçılığın və hüquqi maarifləndirmənin artırılmasını da özündə ehtiva edir.

## Milli Fəaliyyət Planının əsas istiqamətləri və yerli səviyyədə tətbiqi

Milli Fəaliyyət Planı aşağıdakı əsas istiqamətləri əhatə edir:

- Dövlət və bələdiyyə orqanlarında qərar qəbuletmədə şəffaflıq;
- Maliyyə və torpaq münasibətlərində korrupsiya risklərinin azaldılması;
- Elektron xidmətlərin və "e-hökumət" sisteminin genişləndirilməsi;
- Dövlət qulluqçuları və bələdiyyə üzvləri üçün etik davranış kodekslərinin icrası;
- Məlumatlara çıxış hüququnun təmin olunması;
- Cəmiyyətin korrupsiyaya qarşı maarifləndirilməsi.

Yerli özünüidarəetmə sahəsində Milli Fəaliyyət Planının tətbiqi xüsusi önəm daşıyır. Bələdiyyələrin fəaliyyət sahəsi vətəndaşlarla birbaşa təmasa dayandığı üçün burada şəffaf və korrupsiyadan azad idarəetmə mexanizmlərinin qurulması ictimai inamın formalaşdırılması baxımından həlledici əhəmiyyət daşıyır. Milli Fəaliyyət Planı çərçivəsində bələdiyyələrin aşağıdakı fəaliyyətləri həyata keçirməsi nəzərdə tutulur:

- Torpaq sahələrinin icarəyə və ya mülkiyyətə verilməsində şəffaflıq: bu sahədə açıq hərracların və müsabiqələrin keçirilməsi, torpaqla bağlı qərarların dərc edilməsi;
- Bələdiyyə büdcələrinin ictimaiyyətə açıq formada təqdim olunması: gəlirlər və xərclər barədə hesabatların internet səhifələrində paylaşılması;
- Elektron xidmətlərin tətbiqi: müraciətlərin, şikayətlərin, sualların onlayn qəbulu və cavablandırılması;
- Etik davranış qaydalarına əməl olunması: maraqlar toqquşması hallarının qarşısının alınması üçün daxili nəzarət sistemlərinin qurulması;
- İctimai iştirakçılığın təmin olunması: sakinlərin qərar qəbuletmə proseslərində iştirakı üçün mexanizmlərin yaradılması, ictimai dinləmələrin təşkili;
- Maarifləndirmə tədbirləri: antikorrupsiya təlimləri, vebinarlar və məlumat kampaniyalarının təşkili.

Bu tədbirlər bələdiyyələrin idarəetmə mədəniyyətində keyfiyyət dəyişikliyinə səbəb olur. Milli Fəaliyyət Planının icrası həm də vətəndaş cəmiyyəti institutlarının və medianın bələdiyyə üzərində nəzarət imkanlarını genişləndirir.

## Milli Fəaliyyət Planının icra mexanizmləri və monitorinqi

Milli Fəaliyyət Planının uğurla həyata keçirilməsi üçün səlahiyyətli orqanlar arasında koordinasiya mühüm yer tutur. Planın monitorinqi və qiymətləndirilməsi əsasən Nazirlər Kabineti və Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiya tərəfindən həyata keçirilir.

Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına tövsiyə edilməklə Azərbaycan

Respublikasının Nazirlər Kabinetinə tapşırılmışdır ki, Milli Fəaliyyət Planının yerinə yetirilməsi ilə əlaqədar görülən işlərin vəziyyətini mütəmadi təhlil edərək bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versinlər.

Müvafiq olaraq Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyaya isə Fəaliyyət Planının icrasının mütəmadi qiymətləndirilməsinin təmin edilməsi və bu prosesə vətəndaş cəmiyyəti institutlarının cəlb edilməsi üçün tədbirlərin görülməsi tövsiyə edilmiş, həmçinin görülən işlər barədə ictimaiyyətin məlumatlılığının təmin edilməsi həvalə edilmişdir.

Milli Fəaliyyət Planının icrası ilə bağlı vətəndaşların təklif və şikayətlərini yönləndirə biləcəyi platformaların yaradılması mühüm əhəmiyyət kəsb edir. Elektron monitorinq sistemləri və açıq statistika bazaları bu baxımdan böyük imkanlar təqdim edir.

## Milli Fəaliyyət Planının əhəmiyyəti və gözlənilən nəticələr

Korrupsiya ilə mübarizədə Milli Fəaliyyət Planının əsas rolu ondan ibarətdir ki, bu sənəd dövlət orqanlarının fəaliyyətini koordinasiya edir, antikorrupsiya tədbirlərinin məqsədyönlü və ölçülə bilən icrasını təmin edir. Milli Fəaliyyət Planı vasitəsilə:

- Şəffaflıq və hesabatlılıq artır;
- Dövlət və yerli idarəetmə strukturlarında korrupsiya riskləri azaldılır;
- İctimaiyyətin idarəetməyə etimadı güclənir;
- Elektronlaşma və innovativ idarəetmə formaları təşviq edilir;
- Vətəndaş cəmiyyəti ilə dövlət orqanları arasında qarşılıqlı əlaqə formalaşır.

Bələdiyyə səviyyəsində isə Milli Fəaliyyət Planının əhəmiyyəti daha çox praktik təsirlərlə ölçülür. Belə ki, torpaq münasibətlərinin şəffaflaşması, sosial layihələrin dürüst icrası, qərarların əsaslandırılmış və ictimai müzakirələrdən sonra qəbul edilməsi yalnız bu planın real icrası ilə mümkündür.

Nəticə etibarilə, Milli Fəaliyyət Planı korrupsiyaya qarşı mübarizədə dövlət və cəmiyyət arasında əməkdaşlıq körpüsü yaradır. Bu körpünü möhkəmləndirmək üçün yerli səviyyədə planın maddə-maddə tətbiqinə, ictimaiyyətin məlumatlandırılmasına və əldə edilən nəticələrin açıq hesabatlandırılmasına ciddi ehtiyac var.

## 2.2. Ədliyyə Nazirliyinin bələdiyyələrlə iş sahəsində fəaliyyəti

Bələdiyyələr artıq 25 ildir ki, fəaliyyət göstərir, Azərbaycanda aparılan köklü islahatlar və yaşanan dinamik tərəqqi dövründə özünün inkişaf yolunu keçir, vətəndaşların maraq və mənafeləri naminə yerli əhəmiyyətli məsələlərin həllində iştirak edir, onların etibarını qazanmağa, cəmiyyətimizdə özünə məxsus yer tutmağa səy göstərir, fəallıqlarını artırır, öz səlahiyyətləri çərçivəsində konkret işlər görür. Bələdiyyələrin hüquqi statusunun qanun çərçivəsində müəyyənləşdirilməsi ilk dəfə olaraq məhz Ümummilli Lider Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapdı. Dövlətçilik tarixinə mühüm hadisə kimi daxil olan bu tarixi gündən sonra 1999-cu ilin dekabrında ilk bələdiyyə seçkilərinin keçirilməsi ilə bələdiyyələr formalaşmağa və onların hüquqi bazasını təşkil edən normativ aktlar qəbul edilməyə başlandı. Bu aktlarda bələdiyyələrin bir qurum olaraq hüquqi statuslarının müəyyən edilməsi, onların fəaliyyətinin əsas prinsipləri, maliyyə-iqtisadi təminatları və digər məqamlar öz əksini tapdı. Ümummilli Liderimiz Heydər Əliyevin müəyyən etdiyi siyasi kursun Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi nəticəsində dövlətin idarəetmə sistemi daha da təkmilləşdirilmiş, bununla yanaşı yerli özünüidarəetmənin səmərəliliyinin artırılması, bələdiyyələrin səlahiyyət və fəaliyyətinin gücləndirilməsi istiqamətində zəruri tədbirlər davam etdirilmişdir. Nəticədə respublikamızda tam olaraq bələdiyyə institutu formalaşmış, ölkənin şəhər, qəsəbə və kəndlərində vətəndaşlarımızın rifahı naminə sosial-iqtisadi inkişafın təmin olunmasında fəal iştirak edən yerli özünüidarəetmə sistemi bərqərar edilmişdir. Ölkədə yerli

özünüidarəetmə siyasətini həyata keçirmək məqsədi ilə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsində Bələdiyyələrlə iş sektoru, qanunvericilik bazasının yaradılması və təkmilləşdirilməsi üçün Milli Məclisdə Regional məsələlər komitəsi, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirmək, onlara metodoloji yardım göstərmək və maarifləndirilməsini təmin etmək məqsədilə Ədliyyə Nazirliyində Bələdiyyələrlə iş baş idarəsi, onların fəaliyyətinin əlaqələndirilməsinə, həmin fəaliyyətin beynəlxalq hüquq normalarına və mövcud qanunvericiliyə uyğun qurulmasına və ortaya çıxan problemlərin birgə həll edilməsinə köməklik göstərmək yolu ilə yerli özünüidarənin möhkəmlənməsi və inkişaf etdirilməsi üçün Azərbaycan şəhər, qəsəbə və kənd bələdiyyələrinin milli assosiasiyaları yaradılmışdır.Azərbaycan Respublikasında yerli özünüidarəetmə orqanlarının səmərəli fəaliyyəti üçün dövlət tərəfindən sistemli tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Respublikasında yerli özünüidarə orqanları olan bələdiyyələrə xüsusi əhəmiyyət verilərək bu sahədə zəngin normativ hüquqi bazanın yaradılması işi davam etdirilmiş, o cümlədən bir sıra qanunlar, ölkə Prezidentinin fərmanları və Nazirlər Kabinetinin qərarları qəbul edilmişdir. Ümumiyyətlə, bilavasitə bələdiyyələrin fəaliyyətini tənzimləyən onlarla qanun qəbul olunmuş, Azərbaycan Respublikasının Mülki, Torpaq, Su, Vergi, İnzibati Xətalar və s. məcəllələrinə bələdiyyələrlə bağlı müddəalar daxil edilmişdir. Qəbul olunmuş qanunlarda yerli özünüidarəetmənin çox mühüm məsələləri - yerli büdcənin formalaşdırılması, təsdiqi və icrası, yerli vergi və ödənişlərin müəyyən edilməsi, yerli sosial müdafiə, yerli iqtisadi, ekoloji proqramların işlənib hazırlanması və reallaşdırılması, mülkiyyət münasibətlərinin formalaşdırılması, ərazi və digər məsələlər öz əksini tapmışdır.

Azərbaycan Respublikası Prezidentinin 27 sentyabr 2003-cü il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqan kimi müəyyən edilmiş və Nazirliyin üzərinə yeni mühüm vəzifələr qoyulmuşdur. Bununla bağlı Ədliyyə Nazirliyi tərəfindən bələdiyyələrin fəaliyyətinə inzibati

nəzarətin qanunvericiliklə müəyyən edilmiş qaydada təşkil olunması üçün bir sıra təşkilati və digər tədbirlər həyata keçirilmişdir. Müvafiq normativ hüquqi aktlara riayət edilməsinin təmin olunması və bələdiyyələr tərəfindən qanunvericiliyin pozulması hallarının qarşısının alınması məqsədilə yerli özünüidarə orqanlarının fəaliyyətinə inzibati nəzarət institutunun formalaşdırılması gündəlikdə duran vacib məsələlərdən biri olmuşdur. Bu məsələnin əhəmiyyəti həmçinin Yerli özünüidarə haqqında Avropa Xartiyasında, Avropa Yerli və Regional Hakimiyyətlər Konqresinin bu sahədə apardığı monitorinqin nəticələri üzrə Azərbaycan Respublikasında yerli özünüidarənin mövcud vəziyyətinə dair verilmiş tövsiyələrində xüsusi qeyd olunmuşdur.

Ədliyyə Nazirliyinin yerli özünüidarəetmə sahəsində fəaliyyət istiqamətləri Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli Fərmanı ilə təsdiq edilmiş Əsasnaməsinə uyğun olaraq bunlardır:

- bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət;
- bələdiyyələrin fəaliyyətinin təşkilinə kömək və onlara metodoloji yardım.

**Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət** - bələdiyyələr, bələdiyyə orqanları və onların vəzifəli şəxsləri (bundan sonra – "bələdiyyələr" adlandırılacaq) tərəfindən Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərmanlarına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına (Naxçıvan Muxtar Respublikasında isə həm də Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına, qanunlarına və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarına) riayət edilməsinin təmin olunması, bələdiyyələr tərəfindən qanunvericiliyin pozulması hallarının, onları yaradan səbəb və şəraitin aradan qaldırılması məqsədi ilə həyata keçirilən fəaliyyətdir. Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət yalnız Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə nəzərdə tutulmuş qaydada və hallarda həyata keçirilir. Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət yalnız qanunçuluğa əməl olunması baxımından həyata keçirilir.

**Bələdiyyələrin fəaliyyətinin təşkilinə kömək və onlara metodoloji yardım** - bələdiyyələrin fəaliyyətinin Azərbaycan Respublikasının Konstitusiyasına, “Yerli özünüidarə haqqında” Avropa Xartiyasına, Azərbaycan Respublikasının qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərmanlarına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına (Naxçıvan Muxtar Respublikasında isə həm də Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına, qanunlarına və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarına) uyğun, mütərəqqi beynəlxalq təcrübə və yerli xüsusiyyətlər nəzərə alınmaqla səmərəli təşkilinə nail olunması məqsədilə həyata keçirilir. Kömək və metodoloji yardım bələdiyyələrin yerli əhəmiyyətli məsələləri qanun çərçivəsində müstəqil və sərbəst surətdə həll etmək hüququnu məhdudlaşdıra bilməz.

Bələdiyyələrin işinin qanunauyğunluğunun təmin edilməsi məqsədilə “Yerli özünüidarəetmə haqqında Avropa Xartiyası”nda müəyyən edilmiş prinsiplərə uyğun olaraq onların fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi ilə bağlı 13 may 2003-cü il tarixdə “Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Ədliyyə Nazirliyi həmin qanuna uyğun olaraq bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətlə bağlı hər il Azərbaycan Respublikasının Milli Məclisinə məruzə təqdim edir.

İnzibati nəzarət fəaliyyəti ilə yanaşı Ədliyyə Nazirliyinin Əsasnaməsində bələdiyyələrin fəaliyyətinin təşkil edilməsinə kömək və onlara metodoloji yardım göstərilməsi vəzifəsi də təsbit olunmuşdur. Qeyd olunan fəaliyyətlə bağlı “Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanununa 2019-cu il 9 iyul tarixli müvafiq dəyişiklik edilərək onun hüquqi əsası Qanun səviyyəsində təsbit olunmuşdur.

BMT rəsmiləri tərəfindən ölkəmizdə dövlətin bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətlə yanaşı onlara metodoloji yardım fəaliyyətini də həyata keçirməsi müsbət təcrübə kimi təqdir olunur.

Ədliyyə Nazirliyi tərəfindən 2003-cü ildən ötən müddət ərzində 1 milyondan çox bələdiyyə aktı hüquqi ekspertizadan

keçirilmişdir. İnzibati nəzarət icraatı qaydasında qanunvericiliyin tələblərinə zidd olduğu müəyyən edilmiş 41 mindən çox aktın ləğvi və ya dəyişdirilməsi məqsədilə bələdiyyələrə təkliflər verilmişdir.

İnzibati nəzarət icraatı qaydasında aparılmış araşdırmalar zamanı 543 halda ciddi qanun pozuntuları aşkar edilərək toplanmış sənədlər hüquqi qiymət verilməsi üçün aidiyyəti üzrə istintaq orqanlarına göndərilmişdir.

Bələdiyyələrin fəaliyyətinə həyata keçirilən inzibati nəzarət tədbirləri nəticəsində ümumilikdə 112 min ha yaxın torpaq sahəsinin qanunsuz mülkiyyətə və ya icarəyə verilməsinin qarşısı alınmışdır.

Göstərilənlərlə yanaşı bələdiyyələrin fəaliyyətində qanunçuluğun təmin edilməsi, bələdiyyə üzv və qulluqçularının hüquqi maarifləndirilməsi məqsədilə 3 minə yaxın maarifləndirmə tədbiri (seminar, kurs, təlim) keçirilmiş və bu tədbirlərə 102 min nəfərdən çox bələdiyyə üzvü və qulluqçusu cəlb edilmişdir.

Həmçinin yerli özünüidarəetmə sahəsini tənzimləyən qanunvericilik aktlarının tələblərinin izahı və fəaliyyətdə nəzərə alınması barədə 95 mindən çox tövsiyə hazırlanaraq ayrı-ayrı bələdiyyələrə göndərilmişdir.

Məlumdur ki, əhalinin qanunvericiliklə müəyyənləşdirilmiş yerli əhəmiyyətli məsələləri özlərinin həll və idarə etmələri üçün seçki yolu ilə formalaşdırdıqları idarəetmə orqanı kimi bələdiyyələr mahiyyətinə görə insanlara, əhaliyə ən yaxın idarəetmə orqanıdır. Bələdiyyələrin fəaliyyətinin səmərəliliyinin ən mühüm şərtlərindən biri seçicilərinin, yerli əhalinin onlara inamının, dəstəyinin olmasıdır.

Ədliyyə Nazirliyinin fəaliyyət istiqamətlərinə uyğun olaraq bələdiyyə fəaliyyətində qanunçuluğa əməl edilməsi, qanunvericiliyin tələblərinin pozulması hallarının, o cümlədən korrupsiya hüquqpozmalarının, onları yaradan səbəb və şəraitin aradan qaldırılması məsələləri diqqətdə saxlanılır, bu istiqamətdə zəruri tədbirlər görülür.

Korrupsiyaya qarşı mübarizənin davamlı olması, korrupsiyanın qarşısının alınması ilə bağlı müasir çağırışlara uyğun effektiv mexanizmlərin tətbiq edilməsi xüsusi əhəmiyyət kəsb edir.

Mütəmadi olaraq bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin nəticələri əsasında ümumiləşdirmə və təhlillər aparılır, xarakterik pozuntular müəyyən edilir, onların aradan qaldırılması məqsədilə müxtəlif maarifləndirmə xarakterli (seminar-təlimlər, metodik vəsaitlər və tövsiyələrin hazırlanması və s.) və digər tədbirlər həyata keçirilir.

Yerli özünüidarəetmə sahəsində şəffaflığın artırılması məqsədilə bələdiyyələrin fəaliyyətində korrupsiya ilə əlaqədar hüquqpozmaları yaradan səbəb və şərait öyrənilmişdir.

Bu məqsədlə Bələdiyyələrlə iş baş idarəsi tərəfindən aparılan ümumiləşdirmə və təhlillər, həmçinin həyata keçirilmiş inzibati nəzarətin nəticələri əsas götürülmüşdür.

Aparılan təhlillər əsasında bələdiyyələrin fəaliyyətində rast gəlinən pozuntuları sistemləşdirsək görərik ki, bu pozuntular xüsusilə bələdiyyə torpaqlarının idarəedilməsi, maliyyə vəsaitlərindən istifadə, şəffaflıq və hesabatlılığın təmin olunması, bələdiyyə idarəetməsi (icra aparatının təşkili, bələdiyyə qulluğu və s.) məsələlərini əhatə edir.

Ötən illər ərzində Ədliyyə Nazirliyi tərəfindən həm inzibati nəzarət, həm də metodoloji yardım çərçivəsində tədbirlər həyata keçirilməsinə baxmayaraq bələdiyyələrin fəaliyyətində bir sıra xarakterik pozuntular qalmaqdadır.

Onlardan bəziləri qeyd olunur:

- ✓ torpaq sahələrinin qanunsuz mülkiyyətə və ya icarəyə verilməsi;
- ✓ torpaq sahələrinin real dəyərindən xeyli ucuz satılması və icarə haqqının formalaşmış bazar qiymətindən aşağı məbləğdə müəyyənləşdirilməsi;
- ✓ yerli büdcə layihəsinin real, əhatəli və qanunauyğun hazırlanıb təsdiq edilməməsi;
- ✓ büdcədə nəzərdə tutulmayan xərclərə yol verilməsi;
- ✓ əsassız olaraq bələdiyyə büdcəsindən pul vəsaitlərinin silinməsi;
- ✓ yerli büdcənin vəsaiti hesabına görülmüş işlərin mühasibat uçotu qaydalarına uyğun sənədləşdirilməməsi;
- ✓ pul vəsaitlərinin (icarə haqqı, vergilər, ödənişlər) büdcəyə mədaxil edilməməsi;

- ✓ büdcə layihəsinin, təsdiqlənmiş büdcənin və yerli büdcənin icrasına dair hesabatların əhalinin tanış olması üçün dərc edilməməsi;
- ✓ bələdiyyələrdə kollegial idarəetmənin təmin edilməməsi, təkbaşına qərarlar qəbul edilməsi;
- ✓ kargüzarlıq və müraciətlərə baxılması işinin düzgün təşkil edilməməsi.

Bələdiyyə fəaliyyətində büdcə layihəsinin vaxtında müzakirəyə çıxarılmaması, təsdiq edilmiş yerli büdcədə zəruri xərclərin nəzərdə tutulmaması, büdcə vəsaitlərinin təyinatı üzrə xərclənməməsi, bələdiyyə qərarında ayrılan pul vəsaitinin təyinatının/miqdarının göstərilməməsi və s. kimi pozuntular təkrar müşahidə edilmişdir.

Həmçinin büdcə layihəsinin, təsdiqlənmiş büdcənin və yerli büdcənin icrasına dair hesabatların əhalinin tanış olması üçün dərc edilməməsi, bələdiyyələr tərəfindən görülmüş işlər barədə əhaliyə məlumat verilməməsi kimi hallar isə şəffaflıq və hesabatlılığın təmin edilməsi sahəsində yol verilən xarakterik pozuntulardır.

Bələdiyyənin vəzifəli şəxsləri tərəfindən saxta sənəd tərtib etməklə torpaq sahələrinin ayrılması, vəzifəli şəxsin, həmçinin bələdiyyə iclasının səlahiyyətlərinin mənimsənilməsi, vəzifə səlahiyyətlərinə səhlənkar yanaşma, vəzifə səlahiyyətlərindən sui-istifadə, büdcə vəsaitinin talan edilməsi və mənimsənilməsi və s. kimi cinayət əlamətləri olan pozuntular da müəyyən edilmişdir.

Belə ki, bələdiyyələrin fəaliyyətində aşkar olunmuş cinayət əlamətləri ilə bağlı inzibati nəzarət orqanı tərəfindən 2020-2024-cü illərdə səlahiyyətli dövlət orqanlarına edilmiş müraciətlərin sayı aşağıdakı kimi olmuşdur:

- 2020-ci ildə - 23,
- 2021-ci ildə - 27,
- 2022-ci ildə - 27,
- 2023-cü ildə - 30,
- 2024-cü ildə - 51.

Bununla yanaşı bələdiyyə idarəçiliyi sahəsində daimi komissiyaların yaradılması, kargüzarlıq işinin təşkili, bələdiyyə qulluğuna qəbul məsələlərində də pozuntular

aktualdır. İnzibati nəzarət orqanı tərəfindən verilmiş təkliflərdən görünür ki, bələdiyyə aktları qəbul edilərkən forma və məzmun baxımından qanunvericiliyin tələblərinə uyğun tərtib olunmur, bəzi hallarda qanunvericiliyə istinadlar yanlış olur, hüquqi terminlər mahiyyəti üzrə istifadə edilmir və ya qərarlar kifayət qədər anlaşılan məzmunda olmur.

Qeyd olunur ki, ötən illərdən fərqli olaraq yerli vergi və ödənişlərin məcburi ödənilməsi ilə bağlı tədbirlərin görülməsi üzrə inzibati nəzarət orqanı tərəfindən verilən təkliflərin sayında azalma müşahidə edilmişdir. Bu isə bələdiyyələrin fəaliyyətinin təşkilinə kömək tədbirləri çərçivəsində yerli büdcənin əsas formalaşma mənbələrindən olan yerli vergi və ödənişlərin hesablanması, ödənilməsi sahəsində problemlərin aradan qaldırılması istiqamətində Ədliyyə Nazirliyinin təşəbbüsü ilə görülmüş işlərin müsbət nəticələrindən biridir.

Aparılan təhlillərin nəticələrinə əsasən yerli özünüidarəetmə fəaliyyətində yol verilən pozuntulara, o cümlədən korrupsiya hüquqpozmalarına şərait yaradan, bir-biri ilə səbəb-nəticə əlaqəli aşağıdakı amilləri göstərmək olar:

- ✓ *bələdiyyə mülkiyyətinin səmərəli idarə olunmaması, habelə bələdiyyələrə əmlakın verilməsinin və onun sənədləşdirilməsinin başa çatdırılmaması;*
- ✓ *təkbaşına idarəetmə, bir sıra hallarda bələdiyyə üzvlərinin tam fəaliyyətsizliyi;*
- ✓ *bir çox hallarda bələdiyyələrin daimi komissiyalarının formal fəaliyyət göstərməsi;*
- ✓ *bələdiyyə üzv və qulluqçularının aktiv fəaliyyət göstərməsi üçün stimullaşdırıcı vasitələrin olmaması;*
- ✓ *yerli əhalinin ictimai nəzarətinin zəif olması;*
- ✓ *maliyyə imkanlarının məhdudluğu səbəbli peşəkar kadr çatışmazlığı, vəzifəli şəxslərin təşəbbüskarlığının olmaması;*
- ✓ *yerli özünüidarəetmə fəaliyyətinin təmini ilə bağlı bir sıra məsələlər üzrə normativ hüquqi-tənzimlənmənin təkmil olmaması və s.*

İnzibati nəzarət orqanı tərəfindən həyata keçirilən bələdiyyələrin fəaliyyətinin təşkilinə kömək və metodoloji yardım tədbirlərinin davamlılığına və aktuallığına baxmayaraq

bir sıra hallarda bələdiyyələrin vəzifəli şəxsləri tərəfindən səthi münasibət göstərilməsi, göndərilmiş tövsiyə və digər metodik vəsaitlərin dərindən öyrənilməsinə əhəmiyyət verilməməsi pozuntuların təkrar törədilməsinə gətirib çıxardır.

Təhlillərin nəticələri əsas götürülərək yerli özünüidarəetmə sahəsində şəffaflığın artırılması, o cümlədən bələdiyyələrin fəaliyyətində korrupsiya ilə əlaqədar hüquqpozmaları yaradan səbəb və şəraitin aradan qaldırılması məqsədilə aşağıdakı məsələlərə diqqətin artırılması zəruri hesab olunur:

1) bələdiyyələrə olan ictimai etimadın, həmçinin onların fəaliyyətində şəffaflıq və hesabatlılığın artırılması, ictimai nəzarətin gücləndirilməsi məqsədilə yerli özünüidarəetmə orqanlarının fəaliyyəti barədə əhalinin məlumatlandırılması, bu məqsədlə mətbuatın və internet informasiya ehtiyatlarının imkanlarından istifadənin genişləndirilməsi;
2) inzibati nəzarətin səmərəliliyinin artırılması, o cümlədən bələdiyyə aktlarının hüquqi ekspertizası və müraciətlərin tam və əhatəli araşdırılması işində fəaliyyətin gücləndirilməsi;
3) bələdiyyələrə metodoloji yardım və onların fəaliyyətinin təşkilinə kömək işinin səmərəliliyinin artırılması istiqamətində tədbirlərin davam etdirilməsi, problemli məsələlər üzrə hər bir bələdiyyə ilə fərdi metodiki işin aparılması;
4) yerli özünüidarəetmə sahəsində qanunvericiliyin *(xüsusilə torpaqların idarəedilməsi və bələdiyyələrin fəaliyyətində hesabatlılığın artırılması ilə bağlı)* təkmilləşdirilməsi ilə bağlı əsaslı təkliflərin hazırlanması, o cümlədən
   - ✓ bələdiyyə torpaqlarından səmərəli və əhalinin ümumi mənafeyi əsas götürülməklə istifadə olunması, torpaqayırma qaydalarının sadələşdirilməsi;
   - ✓ yerli ödənişlər üzrə hesabatların təqdim edilməsi, eləcə də hesabatların verilməməsi və ödənişlərin ödənilməməsi hallarında məsuliyyət tədbirinin müəyyən olunması;

- ✓ bələdiyyə vergi xidməti orqanlarının təşkil edilməsi, vergi nəzarətinin həyata keçirilməsi və sənədləşdirilməsi, icraya yönəldilməsi, şikayət prosedurunun dəqiqləşdirilməsi;
- ✓ bələdiyyələrin iclaslarının keçirilməsi, onların sədr və sədr müavinlərinin səlahiyyətləri, bələdiyyə qərarlarının məcburiliyi ilə bağlı qanunvericilikdə müddəaların təkmilləşdirilməsi;
- ✓ bələdiyyə hesabatları ilə bağlı mövcud normaların təkmilləşdirilməsi;
- ✓ bələdiyyə üzv və qulluqçularına stimullaşdırıcı tədbirlərin tətbiqi *(bələdiyyə gününün təsisi, müxtəlif təltiflərin müəyyən edilməsi və s.)* məsələsinə baxılması;
- ✓ yerli özünüidarəetmə orqanlarının fəaliyyətinə inzibati nəzarətin gücləndirilməsi və elektron informasiya sistemi vasitəsilə nazirliyin inzibati nəzarətdən irəli gələn vəzifələrinin çevik həyata keçirilməsi və s.

# III FƏSİL. Korrupsiyaya qarşı mübarizədə praktiki yanaşmalar və metodlar

## 3.1. Şəffaflığın təmin olunması üsulları

Yerli özünüidarəetmə orqanlarında şəffaflığın təmin olunması korrupsiyaya qarşı mübarizənin əsas istiqamətlərindən biridir. Şəffaflıq — qərar qəbuletmə proseslərinin, maliyyə və torpaq münasibətlərinin, ictimai xidmətlərin həyata keçirilməsinin açıq və izlənilə bilən formada təşkili deməkdir. Şəffaflıq yalnız korrupsiya risklərini azaldan mexanizm deyil, eyni zamanda vətəndaş inamını möhkəmləndirən və ictimai nəzarət imkanlarını genişləndirən fundamental prinsipdir.

İnformasiya əldə edilməsinin təmin olunması sahəsində açıqlıq, ictimai iştirakçılıq, şəffaflıq və hesabatlılıq prinsiplərinin tətbiqinin daha da genişləndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 fevral tarixli 1859 nömrəli Sərəncamı ilə "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı" təsdiq edilmişdir. Qeyd olunan Milli Fəaliyyət Planında yerli özünüidarəetmədə hesabatlılığın, aşkarlığın və ictimai iştirakçılığın təmin edilməsi sahəsində bir sıra tədbirlərin görülməsi nəzərdə tutulmuş, bələdiyyələrin milli assosiasiyalarının və ictimaiyyət nümayəndələrinin iştirakı ilə daimi fəaliyyət göstərən ictimai şuranın yaradılması, media subyektlərindən, internet informasiya ehtiyatlarından istifadə etməklə yerli büdcənin hesabatlılığının təmin edilməsi, bələdiyyələrin internetə çıxışının artırılması, bələdiyyələrin internet səhifələrinin açılması və aktiv fəaliyyət göstərməsinin təmin edilməsi və Bələdiyyələrlə iş portalının yaradılması tapşırılmışdır. Ədliyyə Nazirliyi tərəfindən "Bələdiyyələrlə iş" informasiya sistemi hazırlanaraq 2020-ci ilin avqust ayından

istifadəyə verilmişdir. Nəticədə nazirliyin aidiyyəti qurumları və bələdiyyələr arasında elektron sənəd mübadiləsi, o cümlədən bələdiyyə aktlarının inzibati nəzarət orqanına elektron qaydada göndərilməsi təşkil olunmuşdur. Ötən müddət ərzində portalın funksional imkanları artırılmış, eləcə də ondan istifadənin bütün bələdiyyələri əhatə etməsi üzrə tədbirlər görülmüşdür.

Bələdiyyələrlə onların fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqan arasında elektron sənəd dövriyyəsi təşkil edildikdən sonra bələdiyyə aktlarının vaxtında təqdim edilməməsi hallarının, habelə bununla bağlı bələdiyyələrin vəzifəli şəxsləri tərəfindən törədilən inzibati xətaların sayı əhəmiyyətli dərəcədə azalmışdır.

Yerli özünüidarəetmədə şəffaflığı təmin etmək üçün tətbiq olunmalı əsas mexanizmlər aşağıdakılardır:

*İctimaiyyətə açıq iclaslar və qərar qəbuletmə* - Bələdiyyə iclaslarının vaxtı və gündəliyi əvvəlcədən elan olunmalı, iclasların keçirilməsi açıq şəkildə təşkil edilməlidir.

*Büdcənin şəffaflığı və açıq hesabatlılıq* - bələdiyyə büdcəsi - gəlirlər, xərclər, proqram və layihələr üzrə ayrılan vəsaitlər ictimaiyyətə təqdim olunmalıdır. Yerli büdcənin icrası haqqında yarımillik və illik maliyyə hesabatı, əvvəlki il üzrə görülmüş işlər haqqında, o cümlədən bələdiyyə mülkiyyətinin istifadəsi haqqında seçicilərinə hesabat dərc olunmalı, sadə və vətəndaşların başa düşəcəyi formatda təqdim edilməlidir.

*Torpaq münasibətlərinin şəffaflığı* - bələdiyyə torpaqlarının icarəsi, satışı və istifadə hüququnun verilməsi, qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla yalnız açıq hərrac və müsabiqə yolu ilə həyata keçirilməlidir. Hərracların nəticələri dərhal ictimaiyyətə çatdırılmalı, torpaqla bağlı bütün məlumatlar şəffaf şəkildə yayımlanmalıdır.

*Elektron xidmətlərin və rəqəmsal platformaların tətbiqi* - bələdiyyələr elektron portal və onlayn xidmətlər vasitəsilə sənəd dövriyyəsini, müraciətlərin qəbulunu, hesabatların təqdimatını təmin etməlidir. Bu həm şəffaflığı, həm də operativliyi artırır. E-xidmətlər vasitəsilə vətəndaşlar öz müraciətlərinin statusunu izləyə, qərarları oxuya və təkliflər verə bilərlər.

*Məlumat dərcinin sistemləşdirilməsi* - bələdiyyə qərarlarının, maliyyə hesabatlarının, torpaq reyestrlərinin və iclas protokollarının sistemli şəkildə dərc edilməsi şəffaflıq üçün əsasdır. Bu məlumatların arxivləşdirilməsi və ictimaiyyət üçün açıq saxlanması vacibdir.

Şəffaflığın effektivliyini artırmaq üçün təkcə inzibati deyil, həm də ictimai nəzarət vacibdir. Bələdiyyələr ictimai monitorinq təşəbbüslərini təşviq etməli və qeyri-hökumət təşkilatları, media və yerli icmalarla əməkdaşlıq qurmalıdır.

Bələdiyyələr yerli özünüidarəetmə orqanı olmaqla mahiyyət etibarı ilə yerli əhaliyə ən yaxın idarəetmə formasıdır. Bu baxımdan da, bələdiyyələrin işinin şəffaf təşkil edilməsi, yerli əhalinin onların fəaliyyəti ilə yaxından tanış olması üçün şəraitin yaradılması yerli özünüidarəetmənin mahiyyətindən irəli gələn ən vacib tələblərdir və buna əməl edilmədən yerli özünüidarəetməni təsəvvür etmək mümkün deyildir.

Bələdiyyələrin fəaliyyətində şəffaflığın təmin edilməsi olduqca mühüm məsələdir. Çünki, əhali qarşısında qanunvericiliklə müəyyən edilmiş müddətlərdə hesabat verən bələdiyyələr yerli əhalinin problemlərinə bələd olmaqla yanaşı, onların həlli üçün qərarlar qəbul edirlər. Həmin qərarlar bir çox hallarda əhalinin yaşayışına, üzləşdikləri məsələlərə aid olduğundan, yerli əhalinin etimad göstərərək seçdiyi bələdiyyə üzvləri fəaliyyətə başladıqları gündən onlara göstərilən etimadı doğrultmalarını gördükləri iş barədə əhalini ardıcıl məlumatlandırmaqla təsdiqləyirlər.

Bələdiyyələrlə bağlı qəbul edilmiş qanunvericilik aktlarında bələdiyyələrin fəaliyyətində şəffaflığın təmin edilməsinə dair kifayət qədər tənzimləyici normalar müəyyən edilmişdir. Bu normalar istər bələdiyyələrin özünə, istər dövlətə, istərsə də əhaliyə qarşı münasibətdə özünü göstərir. Belə ki, "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinin 4-cü hissəsinə əsasən bələdiyyə üzvü 6 ayda bir dəfədən az olmayaraq seçiciləri qarşısında hesabat verir. Həmin Qanunun 17-ci maddəsinin 5-ci hissəsinə görə daimi və başqa komissiyalar onları seçmiş bələdiyyə qarşısında məsuliyyət daşıyır və ona hesabat verir.

Adı çəkilən Qanunun 52-2-ci maddəsinə görə bələdiyyələr Konstitusiyanın 144-cü maddəsinin II hissəsinə əsasən qanunvericilik hakimiyyəti tərəfindən bələdiyyəyə verilmiş əlavə səlahiyyətlərin həyata keçirilməsi və həmin Qanunla müəyyən edilmiş hallarda yerli büdcələrə Azərbaycan Respublikasının Dövlət büdcəsindən ayrılmış maliyyə vəsaitlərinin istifadəsi barədə Azərbaycan Respublikasının Milli Məclisinə hesabat verirlər. Bələdiyyə hər ilin yanvar ayının üçüncü həftəsinin bazar ertəsi görülmüş işlər haqqında, o cümlədən yerli büdcənin icrası və bələdiyyə mülkiyyətinin istifadəsi haqqında seçicilərinə hesabat verir. Hesabat yazılı formada tərtib edilir və bələdiyyənin iclaslarında təsdiq edilir. Yerli əhalini tanış etmək məqsədi ilə hesabat bələdiyyə binasının qarşısında xüsusi lövhələrdə yerləşdirilir, habelə elan, bülleten, vərəqə, yerli mətbuat, internet saytı və digər vasitələrlə əhaliyə çatdırılır.

Şəffaflığın təmin edilməsi məqsədilə dövlət idarəçiliyinin həyata keçirilməsinə Azəbaycan Respublikası vətəndaşlarının cəlb edilməsi üçün "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Bu Qanun vətəndaşların dövlət idarəetməsinin həyata keçirilməsinə cəlb edilməsi ilə əlaqədar yaranan münasibətləri tənzimləyir. İctimai iştirakçılığın əsas məqsədləri yerli özünüidarəetmə orqanları ilə ictimaiyyət arasında səmərəli qarşılıqlı fəaliyyətin təşkili, yerli özünüidarəetmə orqanlarının fəaliyyətində aşkarlığın və şəffaflığın təmin olunması, dövlət siyasətinin formalaşması, həyata keçirilməsi, qərarların qəbulu zamanı ictimai rəyin və vətəndaşların qanuni maraqlarının nəzərə alınması və əsas insan və vətəndaş hüquqlarının qorunmasıdır.

Qanunun tələblərinə görə yerli büdcənin tərtibi və icrası ilə bağlı bütün işlər də şəffaflıqla həyata keçirilməlidir. Belə ki, "Bələdiyyənin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinə əsasən növbəti büdcə ili üçün yerli büdcə haqqında qərar layihəsi müvafiq sənədlərlə birlikdə cari ilin oktyabr ayının 15-dən gec olmayaraq bələdiyyə iclasının müzakirəsinə və təsdiqinə təqdim edilir. Yerli büdcənin layihəsi bələdiyyə iclasına təqdim edildiyi tarixdən 10 gün ərzində yerli əhalinin tanış olması

məqsədi ilə dərc edilir. Həmin Qanunun 11-ci maddəsinin 3-cü bəndinə görə bələdiyyələr öz nizamnaməsində müəyyən edilmiş qaydada yerli büdcənin icrası haqqında yarımillik və illik hesabatı bələdiyyə iclasına təqdim edir. Yarımillik maliyyə hesabatları hesabat dövründən sonrakı ayın 15-dək, illik maliyyə hesabatları növbəti ilin yanvarın 30-dək təqdim edilməlidir. Bələdiyyələr təqdim edilmiş maliyyə hesabatlarını bələdiyyə iclasının qərarı ilə 15 gün müddətində təsdiq edirlər. Yerli əhalini tanış etmək məqsədilə bələdiyyələr illik hesabatı onlara elan, bülleten, vərəqə, yerli mətbuat, internet saytı və s. vasitələrlə çatdırırlar. Qanunun 13-cü maddəsinə əsasən yerli büdcənin icrasına, o cümlədən sərf edilən vəsaitin təsdiq edilmiş büdcə göstəricilərinin uyğunluğuna bələdiyyə nəzarət edir və bu məqsədlə ildə bir dəfədən az olmayaraq müstəqil auditorları cəlb edir. Yerli əhalini tanış etmək məqsədi ilə auditin nəticələri onların bələdiyyəyə təqdim edildiyi gündən bir ay müddətinə bələdiyyə binasının qarşısında xüsusi lövhələrdə yerləşdirilməlidir.

“Yerli vergilər və ödənişlər haqqında” Azərbaycan Respublikası Qanununun 12.3-cü maddəsinə görə bələdiyyələrin yerli vergi və ödənişlərin yığılması və istifadəsi sahəsində faəliyyəti tam aşkarlıq şəraitində həyata keçirilməlidir. Bu məqsədlə bələdiyyələr və onların müvafiq nəzarət komissiyaları bələdiyyə ərazisində yaşayan sakinlər qarşısında mütəmadi olaraq hesabatlar verir, bülletenlər buraxır, illik hesabatları bələdiyyə binasının qarşısında xüsusi lövhələrdə yerləşdirirlər.

Bələdiyyələrin fəaliyyətində aşkarlıq, şəffaflıq və hesabatlılığın təmin edilməsi, bələdiyyələrin gəlir və xərclərinin vahid portalının yaradılması və bütün bələdiyyə xərclərinin portal vasitəsilə həyata keçirilməsi, portalın açıqlığının təmin olunması ilə bağlı qanunvericilik bazasının formalaşdırılması məqsədilə “Büdcə sistemi haqqında”, “Bələdiyyələrin maliyyəsinin əsasları haqqında” və “Nağdsız hesablaşmalar haqqında” Azərbaycan Respublikasının qanunlarına müvafiq dəyişiklər edilmişdir.

Təkcə maliyyə sahəsində deyil, eyni zamanda bələdiyyələrin hüquqi, ekoloji, sosial məsələlərlə bağlı fəaliyyətində də şəffaflıq təmin edilməlidir. Bələdiyyə

mülkiyyətinə verilmiş torpaq sahələrinin qanunvericiliyə uyğun idarə edilməsi xüsusi mülkiyyətə və icarəyə verilən torpaq sahələri barədə, habelə bələdiyyə ərazisində yaşayan müəyyən sosial təbəqələrə güzəştlərin edilməsi, maddi kömək göstərilməsi barədə yerli əhaliyə məlumat verməklə bələdiyyələrin fəaliyyətində şəffaflığın təmin edilməsi mümkündür. Ədliyyə Nazirliyinə daxil olmuş müraciətlər isə göstərir ki, bir sıra bələdiyyələrdə mülki dövriyyəyə cəlb edilən torpaqlar barədə əhaliyə məlumat verilmir.

Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 56-cı maddəsinin 8-ci hissəsinə görə müvafiq icra hakimiyyəti orqanları və bələdiyyələr mülkiyyətə və icarəyə verilməsi nəzərdə tutulan sərbəst torpaq sahələri və yeni torpaqların mülki dövriyyəyə cəlb edilməsi proqramları barədə əhaliyə məlumat verməli və mediada hər il hesabat dərc etdirməlidirlər.

Bələdiyyələrdə kadr potensialının gücləndirilməsi, yerli özünüidarə işində qanunçuluğun təmini bələdiyyə qulluğuna qəbulun şəffaf keçirilməsindən də çox asılıdır. “Bələdiyyə qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 5-1-ci maddəsinə görə bələdiyyə qulluğuna qəbul müsabiqə əsasında həyata keçirilməlidir. Müsabiqə komissiyasının yaradılması, fəaliyyəti, hüquq və vəzifələri həmin Qanunla müəyyən edilmişdir. Belə ki, Qanunla bələdiyyə qulluğunun təşkili, qulluğa qəbul qaydaları, qulluğa qəbulla bağlı məhdudiyyətlər, bələdiyyə qulluğuna qəbulla bağlı müsabiqənin elan edilməsi qaydaları, sənədlərin qəbulu, müsabiqənin keçirilməsi, müsabiqənin nəticələrinin qiymətləndirilməsi məsələləri tənzimlənmişdir.

Bələdiyyələrin fəaliyyətində şəffaflığın təmin edilməsi vasitələrindən biri kimi vətəndaşların və media subyektlərinin sorğularına vaxtında və dolğun cavab verilməsi də çox önəmlidir.

“İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikası Qanununun 9.1.1-ci maddəsinə uyğun olaraq bələdiyyələr informasiya sahibi sayılırlar. Həmin Qanunun 10-cu maddəsinə əsasən, informasiya sahibi öz informasiya ehtiyatlarından hər kəsin sərbəst, maneəsiz və hamı üçün bərabər şərtlərlə informasiya əldə etmək hüququnu bu

Qanunla müəyyənləşdirilmiş qaydada təmin etməyə borcludur. İnformasiya sahibi bu məqsədlə informasiya məsələləri üzrə vəzifəli şəxs təyin edir, yaxud struktur bölmə yaradır, informasiya xidmətləri göstərir. İnformasiya məsələləri üzrə vəzifəli şəxsin təyin olunmaması və ya struktur bölmənin yaradılmaması informasiya xidmətləri göstərməkdən imtina üçün əsas ola bilməz.

Qanunun 29-cu maddəsinə görə, informasiya sahibi cəmiyyətin maraqlarını daha asan və daha operativ şəkildə təmin etmək, çoxsaylı informasiya sorğularını azaltmaq məqsədi ilə malik olduğu, ictimai vəzifələrin yerinə yetirilməsi nəticəsində yaradılmış, yaxud əldə olunmuş aşağıdakı informasiyaları açıqlamalıdır:

- ümumiləşdirilmiş statistik məlumatlar;
- büdcə proqnozları;
- bələdiyyələrin fəaliyyətləri ilə bağlı hazırlanmış təlimatlar;
- bələdiyyələrin ştat cədvəlləri, həmin idarələrdə çalışan vəzifəli şəxslərin adları, soyadları, telefon nömrələri, elektron poçt ünvanları, həmçinin onların təhsili və ixtisasları barədə məlumatlar;
- bələdiyyələrin fəaliyyəti barədə hesabatlar;
- bələdiyyə satınalmalarının şərtləri, nəticəsi, eləcə də bələdiyyə əmlakının satılması, onun üzərində əmlak hüquqlarının dəyişməsi barədə məlumatlar;
- informasiya sahiblərinin aldıqları kreditlər, qrantlar onların şərtləri və istifadəsi haqqında məlumatlar;
- bələdiyyələrin əmr, sərəncam və qərarları - əmr, sərəncam və qərar qüvvəyə mindiyi gündən;
- bələdiyyələrin vakansiyaları haqqında məlumatlar;
- bələdiyyələrin mal və xidmətlərinə dair məlumatlar;
- bələdiyyələr tərəfindən təsis edilmiş və ya onların iştirakı ilə fəaliyyət göstərən özəl hüquqi şəxslərə dövlət büdcəsindən verilmiş vəsaitdən və ya onlara ayrılmış əmlakdan istifadəyə dair məlumatlar;
- kütləvi tədbirlərin proqramları;
- bələdiyyələrin göstərdikləri xidmətlə bağlı dəyişikliklərə dair məlumatlar – bu dəyişikliyin edilməsinə ən geci on gün qalanadək;

- bələdiyyə orqanları rəhbərlərinin qəbul saatları barədə məlumatlar;
- bələdiyyə müəssisələrində qüvvədə olan əmək haqqı dərəcələri, əməyin ödənilməsinə dair təlimatlar, habelə əlavə haqların ödənilməsi qaydaları və xüsusi güzəştlər barədə məlumatlar;
- əhaliyə göstərilən ictimai xidmətlər haqqında, habelə xidmət göstərilməsi zamanı onların qiymətlərində edilən dəyişikliklər barədə məlumatlar – bu dəyişikliklər edilənədək;
- ictimai rəy sorğusunun nəticələri;
- informasiya sahibinin mülkiyyəti və mülkiyyət öhdəliyi haqqında məlumatlar;
- açıqlanması xüsusi qanunla, beynəlxalq müqavilələrlə və ya onların əsasında qəbul edilən normativ aktlarla müəyyənləşdirilən informasiyalar, yaxud informasiya sahibinin açıqlanmasını zəruri saydığı digər məlumatlar.

İctimai informasiyalar media subyektlərində, rəsmi nəşrlərdə, kitabxanalarda, ictimai informasiya mərkəzlərində, kütləvi istifadənin mümkün olduğu digər yerlərdə sənədlərin tanış olmaq üçün şərait yaradılması yolu ilə və qanunvericilikdə nəzərdə tutulan başqa üsullarla açıqlana bilər.

İnformasiya sahibi həmin Qanunun 21-ci maddəsində göstərilən hallarda sorğunun icrasından imtina edir:
- sorğu əldə edilməsi qanunla məhdudlaşdırılan informasiyaya aid olduqda, yaxud sorğuçunun bu informasiyanı əldə etməyə səlahiyyəti çatmadıqda və ya həmin Qanunla tələb edildiyi hallarda, sorğuçu şəxsiyyətini təsdiq edən sənəd təqdim etmədikdə;
- informasiya sahibi sorğulanan informasiyaya malik olmadıqda və yaxud həmin informasiyanın sahibini müəyyənləşdirməkdə çətinlik çəkdikdə;
- sorğuçunun hansı informasiyanı əldə etmək istədiyini aydınlaşdırmaq mümkün olmadıqda.
- İnformasiya sahibi aşağıdakı hallarda sorğunun icrasından imtina edə bilər:

- sorğuçuya artıq belə bir informasiya verilibsə və sorğuda informasiyanı təkrar əldə etmək zərurəti əsaslandırılmayıbsa;
- sorğu edilən informasiyanın həcmi iri olduğundan sorğunun icrası informasiya sahibinin üzərinə qoyulmuş ictimai vəzifələrin yerinə yetirilməsinə ciddi maneə yaradırsa və ya əsassız böyük məsrəflərə səbəb olursa;
- sorğunun icrasını bir dəfəyə təmin etmək mümkün deyilsə;
- sorğunun icrası informasiyanın sistemləşdirilməsini, təhlil edilməsini və ya sənədləşdirilməsini tələb edirsə.

Ölkəmizdə idarəetmə sahəsində əhaliyə göstərilən xidmət səviyyəsinin yüksəldilməsi, bu istiqamətdə müasir informasiya-kommunikasiya texnologiyalarından istifadənin genişləndirilməsi, xidmətlərin elektronlaşdırılması, şəffaflığın və hesabatlılığın təmin edilməsi, vətəndaş məmnunluğunun artırılması, ictimai iştirakçılığın genişləndirilməsi istiqamətində çoxşaxəli işlər görülməkdədir.

Müxtəlif sahələrdə həyata keçirilən kompleks tədbirlər dövlət xidmətlərinin təkmilləşdirilməsi, şəffaflığın artırılması, vətəndaş cəmiyyəti üzvlərinin fəaliyyətinin dəstəklənməsi, ictimai nəzarətin gücləndirilməsi, həmçinin informasiya əldə edilməsinin təmin olunması sahələrinə öz töhfəsini verməkdədir.

Yerlərdə əhali ilə sıx təmasda olan, əhalinin problemlərinin həll edilməsi istiqamətində geniş səlahiyyətləri olan qurum kimi bələdiyyələrin də dövlətin yürütdüyü müasir siyasəti davam etdirməsi olduqca vacibdir.

Lakin bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsinin nəticələri, müvafiq təhlillər bu sahədə bir sıra pozuntuların olduğunu, bələdiyyələrin və onların vəzifəli şəxslərinin fəaliyyətində şəffaflıq və hesabatlılığın təmin olunması sahəsində qanunvericiliyin tələblərinə riayət edilmədiyini göstərir. Qeyd edilən xarakterik qanun pozuntuları əsasən aşağıdakılardan ibarətdir:

- büdcə layihəsinin, təsdiqlənmiş büdcənin və yerli büdcənin icrasına dair hesabatların əhalinin tanış olması üçün dərc edilməməsi;
- görülmüş işlər barədə əhaliyə hesabatların verilməməsi;

- informasiya sorğularının cavablandırılmaması.

Bələdiyyələrdə şəffaflığın olmaması onlara qarşı olan ictimai etimadın zəifləməsinə, bələdiyyələr haqda neqativ fikirlərin formalaşmasına səbəb olur və bələdiyyə vətəndaş münasibətlərinin yüksək səviyyədə qurulmasına mane olur.

Görülən işlər nəticəsində müəyyən qədər müsbət nəticələrə nail olunsa da, bu sahədə hələ də problemlər qalmaqda davam edir. Belə ki, son illərdə bəzi bələdiyyələrin ayrı-ayrılıqda və ya birgə internet informasiya resursları yaradılsa da, əksər bələdiyyələrin hələ də internet informasiya ehtiyatları formalaşdırılmamışdır.

Bələdiyyələrdə informasiya və kommunikasiya texnologiyaları mühiti yaradılmalıdır, yəni bələdiyyələrin kompüterləşdirmə və avtomatlaşdırma prinsipinə uyğun iş rejiminə keçilməli, bələdiyyələr lokal şəbəkəyə malik olmalı, internet şəbəkəsinə çıxış təmin edilməli, bələdiyyələrin elektron poçt ünvanı olmalı, internet şəbəkəsindən istifadə zamanı informasiya təhlükəsizliyi təmin edilməli, “Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun elektron sənəd dövriyyəsi təmin edilməli, informasiya-kommunikasiya texnologiyaları üzrə müvafiq struktur bölmə mövcud olmalı və bu sahədə mütəxəssislərə malik olmalıdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 16 fevral tarixli 33 nömrəli qərarı ilə təsdiq edilmiş “Dövlət orqanlarının və bələdiyyələrin internet informasiya ehtiyatlarının yaradılması Formaları və Qaydaları”na əsasən bələdiyyələr "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununa əsasən öz fəaliyyətləri ilə bağlı hazırlanmış təlimatları, bələdiyyələrin ştat cədvəllərini, həmin idarələrdə çalışan vəzifəli şəxslərin adları, soyadları, telefon nömrələri, elektron poçt ünvanlarını, həmçinin onların təhsili və ixtisasları barədə məlumatları, bələdiyyələrin fəaliyyəti barədə hesabatları açıqlamaq üçün internet informasiya ehtiyatları yaradırlar. Həmin məlumatlar ən yeni və aktual olmalı, köhnəlmiş, natamam, qeyri-dəqiq və çaşqınlıq yaradan informasiyaların yerləşdirilməsindən imtina edilməlidir. İnternet informasiya ehtiyatlarında yerləşdirilən ictimai informasiyaların tez və asan əldə edilməsi üçün şərait

yaradılmalı və internet informasiya ehtiyatlarının etibarlı fəaliyyəti təmin edilməlidir.

Bələdiyyələrin internet saytları qanunvericiliyin tələblərindən irəli gələn bütün vəzifələrin yerinə yetirilməsini təmin edən funksiyalara və xidmətlərə malik olmalı, internet resursunun, müvafiq məlumat bazasının sanksiyalaşdırılmamış müdaxilədən etibarlı mühafizəsi və saytların təhlükəsizliyinin proqram təminatı sistem baxımından tam təmin olunmalı, saytların müxtəlif brauzerlərdə açılması və məlumatların düzgün oxunuşu təmin olunmalı, saytlar sorğuların sürətli emalını təmin etməli, dayanıqlı xidmət göstərmə qabiliyyətinə malik olmalı, saytlar üzrə axtarış sistemi olmalı və s. tələblərə cavab verməlidir.

Ümumilikdə yerli özünüidarəetmə orqanlarında informasiya-kommunikasiya texnologiyalarının imkanlarının tətbiqi bələdiyyə idarəçiliyinin təkmilləşdirilməsini və idarəetmə keyfiyyətinin yüksəldilməsini, şəffaflığın və hesabatlılığın artırılmasını və vətəndaşların dövlətin idarə edilməsində daha yaxından iştirak etməsi üçün şəraitin yaradılmasını, elektron sənəd mübadiləsinin geniş tətbiqini şərtləndirmiş olur.

Azərbaycanın da qoşulduğu Açıq Hökumət Tərəfdaşlığı (OGP) təşəbbüsü çərçivəsində bələdiyyə səviyyəsində şəffaflıq və ictimai iştirakçılığın artırılması üzrə yol xəritələri hazırlanmaqdadır.

*Tövsiyələr və nəticə*

Bələdiyyə idarəçiliyində şəffaflığın təmin olunması üçün aşağıdakı tövsiyələr həyata keçirilməlidir:

- Elektron platformaların sayının və funksionallığının artırılması;
- Torpaq və maliyyə qərarlarının real vaxt rejimində ictimaiyyətə çatdırılması;
- Bələdiyyə iclaslarının videoyazı formasında yayımlanması;
- Bələdiyyələr üçün şəffaflıq üzrə milli indikatorların hazırlanması və qiymətləndirilməsi;

- Vətəndaşların məlumat əldə etmək hüququndan istifadəsinin təşviqi və maarifləndirilməsi.

Nəticə etibarilə, şəffaflıq bələdiyyə fəaliyyətinin legitimliyini və effektivliyini artıran, korrupsiya risklərini azaldan və ictimai etimadı gücləndirən əsas mexanizmdir. Yalnız sistemli şəffaflıq siyasəti ilə yerli özünüidarəetmə orqanlarında dayanıqlı və səmərəli idarəetmə mühiti formalaşdırmaq mümkündür.

Bələdiyyələrin fəaliyyəti zamanı şəffaflığın təmin edilməsi, yerli əhalinin gedən proseslərlə yaxından tanış olması üçün şəraitin yaradılması əsas tələblərdən biridir. Bələdiyyə üzvləri fəaliyyətə başladıqları gündən onlara göstərilən etimadı doğrultmalı, yerli əhalinin problemlərinin daha da düzgün və tez həllinə çalışmalı və gördükləri iş barədə əhalini mütəmadi məlumatlandırmalıdırlar.

Şəffaflığın təmin edilməsi yönündə görülmüş çoxsaylı tədbirlərə baxmayaraq bir sıra bələdiyyələrin fəaliyyətində bu sahədə çatışmazlıqlar hələ də mövcuddur. Belə ki, bir sıra bələdiyyələr bələdiyyə iclasları keçirmir və yaxud keçirilən iclasın nəticəsi barədə yerli əhalini tanış etmir, bələdiyyənin qəbul etdiyi qərarları və ya digər vacib məlumatları əhalinin tanış edilməsi üçün bələdiyyə binasının qarşısında olan lövhələrdə yerləşdirilmir, elektron informasiya ehtiyatlarında açıqlanmır.

Bələdiyyələrin fəaliyyətində şəffaflığın təmin edilməsi yalnız yerli əhalini məlumatlandırmaqdan ibarət olmamalıdır. Bələdiyyələr ilk öncə büdcə vəsaitlərini ən vacib problemlərin həlli istiqamətinə yönəltməlidirlər. Buna görə də, büdcə tərtib olunarkən ilk növbədə ən vacib problemlər, onların həlli istiqamətləri, bu məqsədlərə büdcədən ayrılacaq maliyyə vəsaitlərinin həcmi və strukturunun müəyyənləşdirilməsi, eləcə də büdcənin təsdiq olunması və büdcənin icrasına ictimai nəzarətin təmin olunması məqsədilə bələdiyyə ərazisində yaşayan əhali proseslərə fəal cəlb olunmalıdır. Bununla da bələdiyyələrdə büdcə vəsaitinin xərclənməsinin şəffaflığına və səmərəliliyinə, son nəticədə isə bir çox problemlərin həllinə nail olmaq olar.

Bələdiyyələr şəffaflığın təmin edilməsi üçün insanlarla daim təmasda olmalı, öz işləri haqqında onlara məlumat

verməlidirlər. Bunun üçün bələdiyyələrə geniş səlahiyyətlər verilmişdir. Bələdiyyələr öz işlərini aşkarlıq və şəffaflıq şəraitində qurmalı və yerli əhalini ölkədə gedən proseslərə cəlb etməlidirlər. Bununla yanaşı, bələdiyyələr gördükləri işləri də təbliğ etməyi bacarmalıdırlar, çünki bu da aşkarlığın və şəffaflığın təmin edilməsinin mühüm formasıdır.

Bələdiyyələr unutmamalıdırlar ki, onların fəaliyyətlərinin səmərəliliyinin mühüm şərtlərindən biri yerli əhalinin onlara etimadının, inamının və dəstəyinin olmasıdır.

## 3.2. Bələdiyyələrdə etik davranış qaydalarının tətbiqi

Etik davranış ictimai idarəetmənin vacib komponentlərindən biridir. Ədalətli, şəffaf və hesabatlı yerli idarəetmə sistemi üçün etik prinsiplərin tətbiqi mühüm əhəmiyyət kəsb edir. Azərbaycanda yerli özünüidarəetmənin əsas forması olan bələdiyyələr vətəndaşların sosial, iqtisadi və hüquqi maraqlarının müdafiəsində mühüm rol oynayır. Bələdiyyə sisteminin etibarlı, dürüst və effektiv işləməsi üçün bu sahədə çalışan şəxslərin – bələdiyyə qulluqçularının və bələdiyyə üzvlərinin etik davranış qaydalarına əməl etməsi zəruridir.

Etik davranış qaydalarının tətbiqi, korrupsiyanın azaldılması, ictimai etimadın gücləndirilməsi və xidmətin keyfiyyətinin yüksəldilməsi baxımından strateji əhəmiyyət daşıyır. Bu baxımdan Azərbaycan Respublikasında qəbul olunmuş müvafiq qanunvericilik aktları və normativ sənədlər bu sahədə möhkəm hüquqi baza yaratmışdır.

Bələdiyyə idarəetməsinin demokratik prinsiplər əsasında qurulması və yerli özünüidarəetmənin səmərəli təşkili, etik davranış mədəniyyətinin formalaşması ilə sıx bağlıdır. Etik davranış yalnız hüquqi tələblərin deyil, həm də cəmiyyətin ümumi mənəvi-əxlaqi gözləntilərinin ifadəsidir. Bu sahədə hüquqi çərçivəni formalaşdıran əsas sənədlər "Bələdiyyə üzvlərinin etik davranış qaydaları haqqında" və "Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının qanunlarıdır.

Etik davranış qaydalarının tətbiqi aşağıdakı əsas məqsədlərə xidmət edir:

- Bələdiyyə sistemində şəffaflıq və hesabatlılığın təmin olunması;
- İctimai etimadın artırılması;
- Korrupsiya və maraqlar toqquşması hallarının qarşısının alınması;

- Yerli özünüidarəetmə proseslərində insan hüquq və azadlıqlarının müdafiəsi;
- Bələdiyyə üzvlərinin və qulluqçularının fəaliyyətində peşəkarlıq və məsuliyyət hissinin gücləndirilməsi.

Həm bələdiyyə üzvləri, həm də qulluqçular aşağıdakı meyarlara əməl etməlidirlər:

- Qanunun aliliyi və hüquqa hörmət: Hər bir fəaliyyət hüquqi əsaslarla həyata keçirilməlidir.
- Peşəkarlıq: Öz vəzifə borcunu layiqincə və vicdanla yerinə yetirmək.
- Qərəzsizlik: Heç bir şəxsi və ya qrup marağını irəli çəkmədən qərar vermək.
- Loyallıq: Dövlətə və yerli icmaya sadiqlik göstərmək.
- İnsan hüquqlarına hörmət: Fəaliyyət zamanı insan ləyaqətinə toxunmamaq, diskriminasiyaya yol verməmək.
- Şəffaflıq və hesabatlılıq: Vətəndaşların məlumat alma hüququnu təmin etmək, qərarların izahını vermək.

Etik davranış qaydalarının tətbiqi yalnız fərdi öhdəliklərlə məhdudlaşmır, həmçinin təşkilati səviyyədə konkret tədbirlər görməyi zəruri edir. Bələdiyyənin sədri etik davranışa əməl olunmasına nəzarət etməli; etik qaydaların pozulması ilə bağlı şikayətlərə baxmalı və tədbir görməlidir; davamlı olaraq bələdiyyə üzvləri və qulluqçuları etik məsələlərlə bağlı maarifləndirilməlidir; etik davranış qaydalarının pozulması halları barədə vətəndaşlara və təşkilatlara məlumat verilməlidir.

**Tipik pozuntu halları və nəticələri**

Aşağıdakı hallar etik normaların pozulması kimi qiymətləndirilə bilər:

- Bələdiyyə resurslarından şəxsi məqsədlərlə istifadə;
- Qeyri-qanuni hədiyyələrin və ya maddi nemətlərin qəbulu;
- Qərəzli qərarlar, siyasi və ya dini təbliğatın aparılması;
- Maraqlar toqquşmasının gizlədilməsi və ya məlumat verilməməsi;
- Vətəndaşlarla münasibətdə qeyri-etik, aqressiv və qeyri-obyektiv davranış.

Etik davranış həm də məlumatlardan düzgün istifadəni nəzərdə tutur. Bələdiyyə üzvləri və qulluqçuları xidməti məlumatları yaymaqdan çəkinməli, məlumatlardan şəxsi maraqlar üçün istifadə etməməli, şəxsi və ya kommersiya sirrinin qorunmasına xüsusi diqqət göstərməlidirlər.

Bu halların baş verməsi intizam məsuliyyəti doğurur. Bələdiyyə üzvlərinə xəbərdarlıq və töhmət, qulluqçulara isə daha sərt tədbirlər – vəzifədən azad etməyə qədər tətbiq oluna bilər.

Qlobal praktika göstərir ki, etik idarəetmə sistemləri güclü olan ölkələrdə vətəndaş məmnuniyyəti daha yüksək, korrupsiya isə daha aşağı səviyyədədir. Azərbaycan da bu istiqamətdə beynəlxalq təcrübəni nəzərə alaraq, etik davranış sistemini davamlı olaraq təkmilləşdirməlidir.

Etik davranış qaydalarının tətbiqi bələdiyyələrin səmərəli fəaliyyətinin və cəmiyyətin onlara olan inamının əsasını təşkil edir. Bu qaydalar hüquqi və mənəvi məsuliyyətin daşıyıcısı kimi çıxış edən bələdiyyə üzv və qulluqçularının davranışına istiqamət verir. Qaydaların tətbiqi həm vətəndaşların hüquqlarının qorunması, həm də dövlətin etibarlı idarəetmə mühitinin qurulması üçün vacibdir. Etik davranışın təşviqi və monitorinqi idarəetmədə keyfiyyətin yüksəldilməsinə, korrupsiyaya qarşı effektiv mübarizəyə və ictimai nəzarətin güclənməsinə imkan yaradır.

Bələdiyyələrdə etik davranış qaydalarının tətbiqi bir sıra çətinliklərlə üzləşir. Məlumatlılıq səviyyəsinin aşağı olması səbəbindən bəzi hallarda etik qaydaların mahiyyəti bələdiyyə üzvləri və qulluqçuları tərəfindən tam dərk olunmur.

İctimai nəzarətin zəifliyi – Vətəndaşlar bələdiyyə fəaliyyətinə fəal şəkildə nəzarət etmədikdə, etik pozuntular gizli qala bilər.

Etik komissiyaların olmaması – Mərkəzləşdirilmiş nəzarət mexanizmləri olmadan etik davranış pozuntularının qarşısı effektiv şəkildə alına bilmir.

Hüquqi çərçivənin mövcudluğu bu sahədə mühüm irəliləyişdir. Lakin bu normaların real həyata tətbiqi üçün praktiki addımlar da atılmalıdır.

Tövsiyələr:

1. Təlim və maarifləndirmə tədbirləri

Yeni seçilmiş üzvlər və işə yeni qəbul olunan qulluqçular etik davranış qaydaları ilə tanış edilməli, mütəmadi olaraq seminar və təlimlər keçirilməlidir.

2. Etik pozuntulara dair şikayət mexanizmi

Vətəndaşlar və digər əməkdaşlar tərəfindən etik pozuntu barədə şikayətlər üçün şəffaf və effektiv mexanizm qurulmalıdır. Bu şikayətlərə müstəqil etika komissiyası və ya müvafiq məsul şəxs tərəfindən baxılmalıdır.

3. Hesabatlılıq və ictimai monitorinq

Bələdiyyələr etik fəaliyyətləri ilə bağlı illik hesabatlar hazırlamalı və ictimaiyyətə təqdim etməlidirlər. Bu hesabatlar şəffaflıq və cavabdehlik baxımından vacib rol oynayır.

Etik dəyərlər olmadan hüquqi baza belə bələdiyyələrin cəmiyyətə faydalı fəaliyyətini təmin edə bilməz. Bu səbəbdən etik davranış qaydalarının tətbiqi bələdiyyələr üçün strateji prioritet olmalı və davamlı inkişafın əsas komponenti kimi qiymətləndirilməlidir.

## 3.3. Vətəndaş iştirakçılığının artırılması yolları

Yerli özünüidarəetmə orqanlarında vətəndaş iştirakının gücləndirilməsi demokratiyanın inkişafı, şəffaflıq və hesabatlılığın təmin edilməsi üçün vacibdir. Vətəndaşların qərarlara bilavasitə qoşulması, yerli problemlərin daha effektiv həllinə və ictimai razılaşmanın artmasına kömək edir.

Ölkəmizdə idarəetmə sahəsində şəffaflığın artırılması, qərarlar qəbul edilən zaman ictimai rəyin, ictimai maraqların nəzərə alınması, ictimai iştirakçılığın genişləndirilməsi sahəsində çoxsaylı işlər görülmüş, mühüm əhəmiyyətli sənədlər – Milli Fəaliyyət Planları, dövlət proqramları qəbul edilmiş və icrası uğurla tamamlanmışdır.

Hazırda da dövlətimiz tərəfindən əhaliyə xidmətlərin göstərilməsində müasir informasiya-kommunikasiya texnologiyalarından istifadənin genişləndirilməsi, xidmətlərin elektronlaşdırılması, vətəndaş cəmiyyəti institutlarının ictimai həyatda rolunun daha da gücləndirilməsi, maliyyə şəffaflığının təmin edilməsi və korrupsiyanın qarşısının alınması sahəsində mühüm tədbirlər davam etdirilməkdədir. Ölkədə sosial-iqtisadi, inzibati sahələrdə həyata keçirilən kompleks tədbirlər dövlət xidmətlərinin təkmilləşdirilməsi, vətəndaş cəmiyyəti üzvlərinin fəaliyyətinin dəstəklənməsi, ictimai nəzarətin gücləndirilməsi, həmçinin informasiya əldə edilməsinin təmin olunması sahələrinə öz töhfəsini verməkdədir.

Müasir inkişaf edən cəmiyyət üçün göstərilən məsələlərin aktuallığı nəzərə alınaraq hazırda bu istiqamətlərdə çoxşaxəli fəaliyyət həyata keçirilməklə yanaşı gələcəkdə də bu proseslərin davam etdirilməsi nəzərdə tutulmuşdur. “Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı”nda əhalinin sıx əlaqədə olduğu yerli özünüidarəetmə sahəsi ilə bağlı məsələlər də əksini tapmışdır. Belə ki, Fəaliyyət Planının 7-ci bəndində yerli özünüidarəetmədə hesabatlılığın, aşkarlığın və ictimai iştirakçılığın təmin

edilməsi istiqamətində bələdiyyələrin milli assosiasiyalarının və ictimaiyyət nümayəndələrinin iştirakı ilə daimi fəaliyyət göstərən ictimai şuraların yaradılması və fəaliyyətinin təmin edilməsi üzrə tədbirlər görülməsi nəzərdə tutulmuşdur.

Yerli özünüidarənin həyata keçirilməsində əhalinin iştirakı, həmçinin bələdiyyələrin fəaliyyətində aşkarlığın, hesabatlılığın təmin edilməsi ilə bağlı məsələlər "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununda da təsbit edilmişdir.

Belə ki, Qanunun 3.6-cı maddəsinə əsasən bələdiyyələr, bələdiyyə orqanları və onların vəzifəli şəxsləri insan və vətəndaş hüquqlarına və azadlıqlarına bilavasitə aid sənəd və materiallarla hər bir vətəndaşın tanış olmaq, habelə qanunla xüsusi hallar nəzərdə tutulmayıbsa, bələdiyyələrin fəaliyyəti haqqında tam məlumat almaq imkanını təmin etməyə, seçicilərin tapşırıqlarını yerinə yetirməyə borcludurlar.

Qanunun 29-cu maddəsində isə əhalinin bələdiyyə aktları yaratmaq təşəbbüsü nəzərdə tutulmuşdur. Yerli əhəmiyyətli məsələlər barəsində əhalinin bələdiyyələrə verdiyi bələdiyyə aktlarının layihələri hökmən əhalinin nümayəndələrinin iştirakı ilə açıq iclaslarda müzakirə olunmalı, nəticələri rəsmən elan edilməlidir.

Ümumilikdə vətəndaşların mərkəzi icra hakimiyyəti, yerli icra hakimiyyəti orqanları və yerli özünüidarəetmə orqanlarının fəaliyyətində iştirakı ilə bağlı məsələlər "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanunu ilə ətraflı tənzimlənir. Qanuna əsasən ictimai iştirakçılıq ictimai müzakirə, ictimai dinləmə, hüquqi aktların layihələrinin ictimai müzakirəsi, ictimai şura və digər formalarda ola bilər. İctimai şura ictimai iştirakçılığın formalarından biri olmaqla həmin Qanunda nəzərdə tutulmuş məqsədlərin həyata keçirilməsi üçün mərkəzi və yerli icra hakimiyyəti orqanlarının və yerli özünüidarəetmə orqanlarının yanında yaradılan məşvərətçi qurumdur.

İctimai iştirakçılığın həyata keçirilməsində məqsəd vətəndaşların dövlətin idarə olunmasında iştiraka cəlb edilməsi, mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsi, mərkəzi və yerli icra hakimiyyəti və yerli

özünüidarəetmə orqanları ilə ictimaiyyət arasında səmərəli qarşılıqlı fəaliyyətin təşkili, həmin orqanların fəaliyyətində aşkarlığın və şəffaflığın təmin olunması, dövlət siyasətinin formalaşması, həyata keçirilməsi və qərarların qəbulu zamanı ictimai rəyin və vətəndaşların qanuni maraqlarının nəzərə alınması, əsas insan və vətəndaş hüquqlarının müdafiəsinin təmin edilməsidir. Bu fəaliyyəti həyata keçirərkən yerli özünüidarəetmə orqanları tərəfindən qanunçuluq, könüllülük, şəffaflıq, plüralizm, bərabərlik və ayrı-seçkiliyə yol verilməməsi prinsiplərinə əməl olunmalıdır.

Qanunun 6-cı maddəsində ictimai şuranın yaradılma qaydası nəzərdə tutulmuşdur. Həmin maddəyə əsasən ictimai şura 5-15 üzvdən ibarət tərkibdə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müəyyən etdiyi əsasnaməyə uyğun olaraq vətəndaş cəmiyyəti institutları tərəfindən seçilir. Azərbaycan Respublikasının 16 yaşına çatmış hər bir vətəndaşı ictimai şuranın üzvü ola bilər. İctimai şuranın səlahiyyət müddəti iki ildir.

İctimai şuranın öz fəaliyyətini həyata keçirən zaman qanunla müəyyənləşdirilmiş bir sıra hüquq və vəzifələri vardır.

Belə ki, ictimai şuranın hüquqlarına:

- Yerli özünüidarəetmə orqanlarından öz fəaliyyəti üçün zəruri olan məlumatları, ictimaiyyətlə məsləhətləşmələr tələb edən məsələlər üzrə hüquqi aktların layihələrini almaq;
- ictimaiyyətlə məsləhətləşmələrin keçirilməsi barədə yerli özünüidarəetmə orqanına təkliflər vermək;
- müvafiq ərazidə və sahədə dövlət siyasətinin formalaşması və həyata keçirilməsi barədə təkliflərlə çıxış etmək;
- müvafiq sahədə dövlət siyasətinin hazırlanması və həyata keçirilməsi barədə hüquqi aktların layihələrinin hazırlanması ilə bağlı təkliflər vermək;
- ictimai əhəmiyyət kəsb edən məsələlərin həllinə dair vətəndaş cəmiyyəti institutlarının təkliflərini toplamaq, ümumiləşdirmək və yerli özünüidarəetmə orqanına təqdim etmək;
- dövlət və cəmiyyət həyatının ayrı-ayrı məsələlərinin müzakirəsi üçün açıq tədbirlər (ictimai müzakirələr,

dinləmələr, seminarlar, konfranslar, dəyirmi masalar və digər tədbirlər) təşkil etmək;
- ictimai rəyin öyrənilməsi üçün sorğular keçirmək və ya müvafiq təşkilatlara sorğu keçirilməsi barədə təkliflər vermək aiddir.

Eyni zamanda ictimai şuranın aşağıdakı vəzifələri vardır:
- Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına, habelə digər normativ hüquqi aktlara riayət etmək;
- şuranın fəaliyyəti barədə əhalini məlumatlandırmaq;
- öz fəaliyyətinə dair illik hesabat hazırlamaq və dərc etdirmək;
- müzakirə olunan məsələlərə qərəzsiz yanaşmaq.

İctimai şuranın iclasları ildə dörd dəfədən az olmayaraq çağrılır və açıq keçirilir. Yerli özünüidarəetmə orqanı ictimai şuranın müzakirəsinə məsələlər təklif edə və yerli özünüidarəetmə orqanının nümayəndələri ictimai şuranın iclaslarında iştirak edə bilərlər.

Yerli özünüidarə orqanlarının fəaliyyətində əhalinin yaxından iştirakı, yerli əhəmiyyətli məsələlərin həlli zamanı ictimaiyyətin qanuni maraqlarının və tələbatlarının nəzərə alınması, bu sahədə vətəndaş cəmiyyəti institutları ilə əlaqələrin qurulması və qarşılıqlı fəaliyyət göstərilməsi, ictimai iştirakçılığın həyata keçirilməsinin təmin edilməsi məqsədilə bələdiyyələr tərəfindən ictimai şuraların yaradılması və digər tədbirlərin həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir.

Bu istiqamətdə aşağıdakı tədbirlər həyata keçirilə bilər:
- İnformasiya və şəffaflığın təmin edilməsi - Yerli büdcə, layihələr və qərarlar haqqında məlumatların ictimaiyyətə açıq şəkildə çatdırılması (rəsmi saytlar, sosial şəbəkələr, elanlar vasitəsilə), mütəmadi ictimai hesabatlar və açıq iclasların keçirilməsi.
- Rəyvermə və məsləhət mexanizmlərinin genişləndirilməsi- Yerli səviyyədə ictimai sorğular, referendumlar və səsvermələrin təşkili, vətəndaşların bələdiyyə layihələrinə rəy bildirməsi üçün onlayn platformaların yaradılması, məsləhət şuralarının və ictimai dinləmələrin aktivləşdirilməsi.

- İctimai nəzarət və təşəbbüslərin dəstəklənməsi - Vətəndaşların yerli idarəetmə proseslərini monitorinq etməsi üçün müstəqil qrupların yaradılması, şikayət və təkliflər üçün mobil tətbiqlərin və elektron xidmətlərin tətbiqi, yerli qərar qəbulunda vətəndaş təşəbbüslərinin nəzərə alınması.
- Vətəndaşların hüquqi bilik səviyyəsinin artırılması - Yerli özünüidarəetmə hüquqları və vəzifələri haqqında maarifləndirmə kampaniyaları, seminarlar, təlimlər və məruzələr vasitəsilə vətəndaşların hüquqi savadlılığının yüksəldilməsi.
- İctimai birliklər və QHT-lərlə əməkdaşlıq - Yerli qurumların qeyri-hökumət təşkilatları və ictimai birliklərlə birgə layihələr həyata keçirməsi.

Yerli özünüidarəetmədə əhalinin iştirakının təmin olunması üçün şəffaflıq, aktiv informasiya mübadiləsi, rəyvermə və hüquqi biliklərin artırılması kimi mexanizmlər tətbiq edilməlidir. Bu yanaşma, daha çox insanın ictimai proseslərə cəlb olunmasına və demokratik idarəetmənin gücləndirilməsinə kömək edəcəkdir.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Azərbaycan Respublikasında korrupsiyaya qarşı mübarizə dövlət siyasətinin prioritet istiqamətlərindən biri olmaqla, xüsusilə yerli özünüidarəetmə sahəsində bu mübarizənin əhəmiyyəti daha da artmışdır. Bu metodik vəsaitdə aparılmış təhlillər və ümumiləşdirmələr göstərir ki, bələdiyyə orqanlarının fəaliyyətində korrupsiyaya səbəb olan halların aradan qaldırılması üçün hüquqi, institusional və ictimai mexanizmlərin daha da gücləndirilməsinə ehtiyac vardır.

Belə ki, korrupsiya xüsusilə yerli özünüidarəetmə sahəsində şəffaf idarəetmə, ictimai etimad və hüquqi sabitlik baxımından ciddi təhlükə olaraq qalır. Korrupsiya hallarının qarşısının alınması üçün kompleks yanaşma, eyni zamanda vətəndaş iştirakçılığının artırılması zəruridir.

Aparılan araşdırmalardan çıxarılan əsas nəticələr:

- Korrupsiyanın əsas səbəbləri normativ-hüquqi qeyri-müəyyənliklər, idarəetmədə şəffaflığın olmaması, zəif nəzarət mexanizmləri və ictimai iştirakçılığın aşağı səviyyədə olmasıdır.
- Yerli özünüidarəetmə orqanlarında torpaq münasibətləri, büdcə və maliyyə idarəçiliyi, kadr siyasəti və qərar qəbuletmə mexanizmləri korrupsiya üçün yüksək risk daşıyır.
- Milli Fəaliyyət Planı və Ədliyyə Nazirliyinin nəzarət funksiyası bu risklərin azaldılması üçün mühüm çərçivə yaradır.

Göstərilənlərə əsasən aşağıdakılar təklif oluna bilər:

1.Hüquqi çərçivənin təkmilləşdirilməsi:

- Bələdiyyələrin fəaliyyətini tənzimləyən normativ aktlarda olan qeyri-müəyyənliklər aradan qaldırılmalıdır.
- Torpaq münasibətləri, satınalmalar və maliyyə idarəetməsi üzrə daha konkret və tətbiqə yönəlik mexanizmlər yaradılmalıdır.

2.Şəffaflıq və hesabatlılığın artırılması:

- Bələdiyyə qərarları, büdcə məlumatları və torpaq münasibətləri üzrə açıq məlumat bazaları yaradılmalı və ictimaiyyət üçün əlçatan edilməlidir.
- Elektron xidmətlərin tətbiqi genişləndirilməli, insan amilindən asılılıq minimuma endirilməlidir.

3.Etik davranış və maraqlar toqquşmasının qarşısının alınması:

- Maraqlar toqquşması ilə bağlı vəziyyətlərdə şəffaflıq və hesabatlılıq mexanizmləri aktivləşdirilməlidir.

4.İctimai iştirakçılığın təmin olunması:

- Vətəndaşların qərar qəbuletmədə iştirakı üçün ictimai müzakirələr, dinləmələr və sorğuların təşkili mütəmadi xarakter daşımalıdır.
- Bələdiyyələrin fəaliyyətinə ictimai nəzarət institusional səviyyədə qurulmalı və stimullaşdırılmalıdır.

5.Maarifləndirmə və təlim tədbirlərinin gücləndirilməsi:

- Bələdiyyə üzvləri və işçiləri üçün korrupsiyaya qarşı mübarizə, etik davranış və idarəetmədə şəffaflıq üzrə mütəmadi təlimlər keçirilməlidir.
- Əhali arasında hüquqi maarifləndirmə tədbirləri genişləndirilməlidir.

Bu tədbirlərin həyata keçirilməsi yerli idarəetmədə şəffaflıq və səmərəliliyin təmin olunmasına, korrupsiya hallarının minimuma endirilməsinə və ictimai etimadın möhkəmləndirilməsinə xidmət edəcəkdir.

Nəticə etibarilə, korrupsiyaya qarşı mübarizə yalnız hüquqi tədbirlərlə məhdudlaşmamalı, eyni zamanda idarəetmədə şəffaflıq mədəniyyəti, ictimai nəzarət və vətəndaş iştirakçılığı ilə dəstəklənməlidir. Bu istiqamətdə davamlı təkmilləşmə və islahatlar bələdiyyə idarəetməsinin keyfiyyətcə yeni mərhələyə keçməsini təmin edəcəkdir.

# İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT SİYAHISI


1. Azərbaycan Respublikasının Konstitusiyası, 12.11.1995, № 00. https://e-qanun.az/framework/897
2. "Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında" Konvensiyasının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu, 30.12.2003, № 570-IIQ https://e-qanun.az/framework/5406
3. "Korrupsiya ilə əlaqədar mülki-hüquqi məsuliyyət haqqında" Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu, 30.12.2003, № 571-IIQ https://e-qanun.az/framework/5407
4. Birləşmiş Millətlər Təşkilatının Korrupsiya əleyhinə Konvensiyasının təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu, 30.09.2005, № 1003-IIQ https://e-qanun.az/framework/10784
5. Azərbaycan Respublikasının 2003-cü il 30 dekabr tarixli 570-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında” Konvensiyanın 5-ci, 6-cı, 10-cu və 12-ci maddələrinə Azərbaycan Respublikası tərəfindən edilmiş qeyd-şərtlərin geri götürülməsi barədə Azərbaycan Respublikasının Qanunu, 01.10.2012, № 423-IVQ https://e-qanun.az/framework/24452
6. “Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında” Konvensiyanın Əlavə Protokoluna qoşulmaq barədə Azərbaycan Respublikasının Qanunu, 01.02.2013, № 548-IVQ https://e-qanun.az/framework/25276
7. Azərbaycan Respublikasının Torpaq Məcəlləsi, 25.06.1999, № 695-IQ https://e-qanun.az/framework/4770
8. “Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanunu, 02.07.1999, № 698-IQ

https://e-qanun.az/framework/4770
9. “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanunu, 13.01.2004, № 580-IIQ https://e-qanun.az/framework/5809
10. “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikasının Qanunu, 30.09.2015, № 1308-IVQ https://e-qanun.az/framework/31281
11. “Bələdiyyənin maliyyəsinin əsasları haqqında” Azərbaycan Respublikasının Qanunu, 07.12.1999, № 772-IQ https://e-qanun.az/framework/5231
12. “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasının Qanunu, 30.09.2005, № 1024-IIQ https://e-qanun.az/framework/11142
13. Dövlət və bələdiyyə əmlakının və vəsaitlərinin idarə olunması sahəsində korrupsiya ilə əlaqədar hüquqpozmalara qarşı mübarizənin gücləndirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 22.06.2009, № 103 https://e-qanun.az/framework/17867
14. “Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 04.04.2022, № 3199 https://e-qanun.az/framework/49349
15. “Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 308-ci maddəsinin “Qeyd” hissəsində nəzərdə tutulmuş “vəzifəli şəxs” anlayışının şərh olunmasına dair” Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 19.07.2013-cü il tarixli Qərarı https://e-qanun.az/framework/26312
16. Ədliyyə Nazirliyinin rəsmi hesabatları və materialları https://belediyye.gov.az/activity?id=1
17. Beynəlxalq Antikorrupsiya Akademiyası https://www.iaca.int/resources/publications/master-theses
18. A.A.Mirzəyev, Ş.M.Kərimov “Korrupsiya cinayətlərinin tövsifində mövcud olan bəzi problemlər”. Bakı, Elmi Məcmuələr Cild 21, №1-2019
19. Birləşmiş Millətlər Rəqəmsal Kitabxanası https://digitallibrary.un.org/?ln=en